Tuncər Cücənoğlu

# K O R D Ö Y Ü Ş Ü

**(Kördövüşü)**

(iki hissəli dram)

Çevirəni: Xəzər Gəncəli

(Hazar Genceli)

BAKI – 2019

İştirak edirlər:

CAMAL - Dövlət Dəmir yollarında maşinist, 55 yaşlarında.

SİDDİQƏ - Onun arvadı, 50 yaşlarında

QARI - Camalın yataq xəstəsi olan anası. 75 yaşlarında

İPSİZ TAHİR – Böyük oğul. 25 yaşlarında.

MAHİR - Kiçik oğul. 23 yaşlarında.

GƏLİN - Tahirin arvadı. 20 yaşlarında

REYHAN - Camalın qızı. 18 yaşlarında

POLİS RAFİQ - Mahirin dostu, 25 yaşlarında.

HƏZRƏT - Nəfəsi güclü olduğuna inanılan molla, 40 yaşlarında.

HƏMİD - Daxmanın sahibi. 40 yaşlarında

(Həmid və Həzrət xarakterləri eyni aktyor tərəfindən canlandırıla da bilər).

# B İ R İ N C İ   B Ö L Ü M

Paytaxtın ucqar məhəllələrinin birində yerləşən bir daxmanın içi. Sol tərəfdə Gəlinlə Tahirin otağı. Divara böyük bir toy foto şəkli vurulub. Əldə-qayırma bir qarderob. Bir gecə lampası. Dəmir çarpayı. Qapı dəhlizə açılmaqdadır. Dəhlizdə yerə iki yataq sərilib. Yataqların birində evin kiçik oğlu Mahir yatıb. Tam qarşıda küçə qapısının lap yanında Qarının yatağı görünür. Qapının sol tərəfində mətbəxə bənzəyən bir çıxıntı "göz oxşayır". Çıxıntının üstündə bir ocaq var, altına da qaz balonu qoyulub. Divardan qaşıqlar asılıb. Yanında rəf var. Soba dəhlizdə qurulubdur. Ayrıca televiziya və kiçik əl radiosu da dəhlizdədir. Dəhliz boyu pərdəylə ayrılmış yerdə bir yataq daha var ki, bu otağa bənzəyən yerdə də Camalla Siddiqə yatıblar. Divara güzgü və bir neçə mənzərə rəsmi vurulubdur. Dəhlizdə Mahir yerində yatıb. Sağ tərəfdəki otağa bənzər yerdə isə Camal, arvadı Siddiqə və qızı Reyhanın yatağıdır. Gəlin də sol tərəfdəki otağındadır. Bircə yatmayan Qarıdır. Arxasını divara dayayıb gözlərini də bir nöqtəyə zilləyib baxır. Ağzında nəsə gəvələyib yavaş-yavaş marçıldadaraq yerində qurdalanır. Amma bəzən qulaqlarını şəkləyib ətrafını maraqla dinləyəndə marçıldatmağa və qurdalanmağa ara verir. Bəzən də iki əlini havaya qaldıraraq uzun-uzadı duamı oxuduğu, ya kiminsə ünvanına lənətmi yağdırdığı bəlli olmayan davranışlar edir. Daxmanın qapısı güc-bəla ilə açılır. Veyl Tahir içəri girir. Dəhlizdə Qarı ilə Mahirin arasında tirtab yerə sərələnir).

QARI: (bu vəziyyətə vərdiş edib. Bir neçə dəfə əlindəki əsa ilə Tahiri dürtmələyir). Tahiiir!.. Bala!..

TAHİR: Əşi!..Çək qəmişini də!..Əh...

(Qarıya kömək edib yerindən qaldırmır. Bir müddət sonra qapı yenə açılır və Camal girir içəriyə. Adəti üzrə səssizcə yeriyir, amma Tahirin qıvrılıb yatdığını bilmədiyindən ayağını tapdalayır).

TAHİR: Yavaş da!...

4.

CAMAL: (işığı yandırır). Yenə də!..

QARI: (qəflətən yanan işıqdan qamaşan gözlərini ovuşduraraq). Xoş gəlmisən, Camal..

CAMAL: (anasının əlini öpür). Sağ ol, ana. Buna nə olub yenə?..Tfu sənin zatına!..Belə övladın boyunu yerə soxum!..

QARI: Sən allah elə demə, Camal..Bunun ağlı başındadı ki, o sözləri deyirsən ona?..

CAMAL: Elə bilirsən, mənim ağlım başımdadır?..Gecə-gündüz yoruldum demədən, yuxuma haram qatıb, bu yaşda at kimi işləyirəm...

QARI: Sərxoşdan dəli də hürküb qaçar, ay oğlum!..

SİDDİQƏ: (gözlərini ovuşduraraq gəlir). Xoş gəldin Camal.

CAMAL: Xoş gördük, xoş gördük. Bu avara yenə də küpünə qədər dəmlənib?..Lül-qəmbərdir, zalım balası!..

SİDDİQƏ: İşin yoxdur, qoy köpsün..nə edək?..Dəymə sən allah!..

CAMAL: Dəyib nə edəcəyəm?..İş yox, güc yox. Ev-eşiyi də yerində... Səhərdən-axşama kimi zəhərlənir. Bu nə işdir, biz düşdük, ya rəbbim?.. Qorxuram ki, günlərin bir günü bu qalsın maşının altında...

SİDDİQƏ: Allah qorusun, a kişi, elə demə...

CAMAL: Allah bu motalın nəyini qorusun? İndiyənə kimi bunun başı bir səcdə gördümü ki, allah bunu qorusun?..Səhər-axşam lül-qəmbər!.. Özü də hər gecə!..Bunun bir yeri partlayacaq əvvəl-axır bir gün...

SİDDİQƏ: Bu necə sözdü?..

CAMAL: Bunlara bir bax, biri sərxoş, o biri də qıvrılıb yatırlar.

SİDDİQƏ: Bəs yatmayıb neyləsinlər?..

CAMAL: Yatsınlar, yatsınlar. Qovun-qarpız da yata-yata böyüyürlər.

SİDDİQƏ: (Mahiri dürtmələyir). Qalx oğlum, atan gəldi...

MAHİR: (yarıyuxulu). Atammı?..(qalxar). Xoş gəldin ata.

CAMAL: Əldən zirək ol. Götürün bu eşşək ölüsünü sürüyün öz otağına.

SİDDİQƏ: (Tahirirn ayaqqabılarını çıxara-çıxara). Gəlin gəlin deyil ki... Ərim gəlib çıxmadı, harada ölüb-qalıb deyə, heç indiyə kimi maraqlanır ki?..Yəqin indi də mışıl-mışıl yatıb.

CAMAL: Biçarə neyləsin? Sabaha kimi bu əyyaşı gözləsin?

SİDDİQƏ: Canı çıxsın gözləsin. İşinin adı nədir?..

CAMAL: Buna bax, a kişi, palçıqlı ayaqqabıları ilə soxulmuş yorğan – döşəyə. Ay Allah, sən mənə səbr ver!..

SİDDİQƏ: (gəlinin otağına keçər). Qalx qızım!..

GƏLİN: Nə olub ki?..

SİDDİQƏ: Ərin gəlib, qayınatan gəlib. Bu vaxtacan yatmaq olar?..Sən yaşda olanda mən ərim gəlmədən girməzdim yorğan-döşəyə. (dəhlizə çıxarkən). Tərbiyə-mərbiyə qalmayıb daha.

GELİN: (tələsik gəlir). Xoş gəldin ata...

CAMAL: Xoş günün olsun qızım.

(Hamısı birlikdə İpsiz Tahiri yatağına götürmək üçün əlləşirlər). Buna bax, eşşək ölüsü kimi uzanıb xorna çəkir.

TAHİR: Mənə toxunmayın...Mən...Özüm...(qalxa bilmir, yenidən üzü üstə gedir).

CAMAL: (Tahirin cibindən sürüşüb düşən qatlanma cib bıçağını görür). Gör bir, bunun cibindən nələr çıxır...Veyl oğlu veyl...Bir az əldən zirək tərpənin!..

(Bu dəfə Camal da onlara qoşulub Tahiri başları üzərinə qaldırırlar.

Qarı da sanki kömək eləyirmiş kimi əlindəki əsa ilə bunları dəstəkləyir. Bu minvalla Tahiri yatağına atırlar. Sonra da sanki böyük bir yükü qaldırıb da yerinə qoymağı bacarırmış kimi əllərini çırpa-çırpa, üst – başlarını səliqə-sahmana salaraq dəhlizə keçirlər. Gəlin ərinin yerə sürüşüb düşən qatlama bıçağını götürüb içəriyə keçir).

SİDDİQƏ: Acsan?..

CAMAL: (ələ salır). Bir az əvvəl toğlu yedik!..

QARI: Yoldan gəldi qızım...

SİDDİQƏ: (Qarıya tərs-tərs baxaraq). O yumurtadan qır iki dənə. Bax gör, çörək var, qabda?..

GELİN: (qazandan çıxarır). Bu çatar?..

CAMAL: Çatmazsa, əlimizdən nə gələr ki?.. Nə var odur. Bəri ötür...

QARI: Turşu da çıxart küpədən.

SİDDİQƏ: Gör, hələ istəyirmi?..

QARI: Mənim balam, ən çox turşunu sevir. Elə deyil, Camalım?..

CAMAL: Sevməyinə sevirəm, amma bu gecə vaxtı onu yeyə bilmərəm doğrusu. Ye turşunu, üstündən də iç suyu, sonra da bu soyuqda çıx görüm, ayaqyolundan necə çıxırsan?..Reyhan!..

SİDDİQƏ: Yanımda yatıbdır.

CAMAL: Nə olub ki?..

SİDDİQƏ: Bir şey olmayıb...

QARI: Bir az naxoşlayıb.

SİDDİQƏ: Yoldan gəlib, söyləməsən olmaz..

QARI: Soruşdu, mən də söylədim də...

(Camal pərdəylə ayrılmış otağa girər. Reyhanın qızdırmasını yoxlar. Hiss olunur ki, qızını çox istəyir).

CAMAL: (dilxor). Rəngi-rufu sapsarı...

QARI: Yenə də tez-tez özündən gedir..Canı ağrayır tifilin...Asandı bəyəm?..

SİDDİQƏ: Yerə yıxılar, deyə , az qalır ürəyim qopsun. Özün bilirsən ki, şüurunu itirəndə dərhal tirtab yıxılıb özündən gedir...

CAMAL: Sabah açılsın, mollaya göstərək. Başqa çarəsi qalmadı...

QARI: Dedim, qulaq asmadınız...Gərək əvvəlcədən mollaya göstərə idik.

CAMAL: Yanağı niyə göyərib?..

SİDDİQƏ: Heç nə yoxdu...

QARI: Tahir...

SİDDİQƏ: Sən sus!...

CAMAL: Olmaya məndən nəsə gizlədirsiniz?..

QARI: Böyük qardaşı bir az bağırdı üstünə...

CAMAL: Uzatma ana, de gəlsin, görək nə olub?..

QARI: Bütün günü pəncərənin qabağında oturduğu üçün Tahir bağırdı ona...

CAMAL: Bağıranda bəyəm sifət göyərər?..Danışsana, ana!..

QARI: Bir sillə vurdu...

CAMAL: Uşağı şikəst edəcək bu gədə, şikəst!..Elə gərək vurasan?.. Lazım olsa mən vura bilmərəm, bəyəm? Kimdir bu evin kişisi? Mənim sözüm keçmir burada?.. Neçə dəfə bunu demişəm sizə?..

QARI: Haqlısan, atam. Bu evin kişisi sənsən. Sən nə desən o da olmalıdır. Yoxsa evdə it yiyəsini tanımaz ki?.. (Camalın xoşnud olduğunu görərək). Hay oğlum, mənim yatağımı da bu pəncərənin qarşısına sürüyüb çəksən barı?..Vallahi, divarlara tamaşa eləməkdən imanım zəifləyib...Ölməsəm də elə bil, məzardayam sanki...

SİDDİQƏ: (əllərinin göyə qaldıraraq). Harada o günlər?..

CAMAL: Allah salamatlıq eləsin, bu qızım bir allah bəndəsinə qismət olsun da çıxıb ərinin ocağına getsin, canı buradan qurtulsun. Başıma bir şey gəlsə, kötəkləyib qızı öldürəcək bu hərif...

(Gəlin ortaya süfrə sərir. Hazırladıqlarını məcməinin içində gətirir).

CAMAL: (Mahirə). Bir xəbər çıxmadı?..

MAHİR: Xəbər verəcəklər, ata...

CAMAL: Kim xəbər verəcək?..

MAHİR: Tofiq...

CAMAL: Heç kimə ümid bağlama, bala.. Öz işinin dalınca özün düşməsən, bu iş düzəlməyəcək. Bax, altı ay oldu ki, əsgərlikdən gəlmisən. Hələ də boş-boşuna gəzirsən. Sən ölməyəsən!..Bunlardan oğul olar?..Əlində gül kimi işin vardı, niyə çıxdın?..

MAHİR: Mən çıxmadım, ata... Çıxartdılar!..

CAMAL: Çıxartdılar!..O profsoyuz-mrofsoyuz nəyinə gərəkdi sənin?.. Gördün ki, axırı nə oldu?..

MAHİR: İş axtarıram ata...

CAMAL: Altı aydı axtarırsan. Yes-yekə adam oldun, hələ də bir baltaya sap olmadın. (bir yandan da ağzına bir şeylər atmaqdadır).

MAHİR: Əslində bir iş tapmışam.

CAMAL: Tapmısansa, niyə bəs işləmirsən?..

MAHİR: Anam istəmir.

CAMAL: Niyə istəmir?..

SİDDİQƏ: Tapdığı iş Ankarada deyil.

CAMAL: Haradadır?..

MAHİR: İstanbulda.

SİDDİQƏ: Bu boyda Ankarada iş tapılmır bəyəm?..

MAHİR: Bəs mənə demirdiniz ki, insana doğulduğu yox, doyduğu yer vətəndir?..

SİDDİQƏ: Harada qalacaqsan?..Aldığını da kirayə pulumu verəcəksən? Necə evlənib, ev-eşik sahibi olacaqsan?..Lise məzunusan. Ankarada iş yoxmu sanki?.. Başqa bir iş tap, yanımızda qal. (Mahir əyninə yun köynək geyib yavaşca dişarı çıxır). Deyinə-deyinə axırda qaçıracaqsan bunu İstanbula...Tək başına orada nə yeyəcək, nə içəcək. Alt paltarını belə yuya bilmir...

CAMAL: Bir tək mənim qazancımla bu evin dolanışığını yola vermək olmur. Biri yeyir, o biri baxır – deyə sürünməkdəyik. Mən istəyirəmmi getməsini?..Amma artıq bir iş tapıb işə girmələri lazımdır. Neyniyim, çatdıra bilmirəm...(Siddiqə oğlunun arxasından dişarıya çıxır. Camal bunu hiss etmir). Düz demirəm, anam?..

QARI: Səni vecinə alan kimdir, ay oğul?..

CAMAL: Böyük qardaşı da işsiz. Veyl-veyl səhərdən-axşama kimi sülənir orada-burada. Siz də gərək kömək eləyəsiniz bu evə. Düz- əməlli bir qazancım olsaydı dərd yarı idi. Vallahi, çatdıra bilmirəm...(Nəfəsi tıxanır, su içir, Qarıya yanaşaraq kürəyinə vurdurur). Əşi, az qaldı öləm ki!..Hara getdi bunlar?..

GƏLİN: Dişarıya çıxdılar.

CAMAL: Bu soyuqda nə işləri var bayırda?..

Yoxsa sözlərim toxundu onlara?..Lap qızbibi olublar mənim üçün...

GƏLİN: Çay süzüm, ata?..

CAMAL: Uzun çəkər. Çağır onları. Bayır soyuqdur.

(Gəlin çıxır).

QARI: Həmid gəlmişdi...

CAMAL: Nə?..

QARI: Ev sahibi Həmid gəldi bu gün. Səni soruşurdu.

CAMAL: Niyə gəldi ki?..

QARI: Səninlə nəsə danışmaq istəyirdi.

CAMAL: Xeyirdir, inşallah..

QARİ: Sabah gəlib yenə baş çəkərəm dedi.

CAMAL: Paho!..Kirayə pulunu verməyiblər bəyəm?..

QARI: Gəlinin atası gətirmədi ki, pulu?..

CAMAL: Gətirmədi?..Necə yəni gətirmədi?..

QARI: Gətirmədi Camalım, gətirmədi...

CAMAL: Elə şey olar?..Tövbə ya rəbbim tövbə.

(Gəlin, Siddiqə və Mahir girirlər. Camalın ovqatı təlx olub).

SİDDİQƏ: (gəlinə). Reyhanın yatağını sər yerə.

(Gəlin pərdəylə ayrılmış yerə gedib çarpayının altından yatağı çıxarırkən).

CAMAL: Həmid gəlmişdi?..Səndən soruşuram!..

SİDDİQƏ: Gəlmişdi...

CAMAL: Nə deyir?..

SİDDİQƏ: Bilmirəm, heç nə demədi...

(gəlin yatağı yerə sərir).

CAMAL: Kirayə pulunu götürdün?..

MAHİR: Şey...ata...

CAMAL: Yoxsa götürmədin?..Ev sahibi bir dəfə xəbərdarlıq eləyib bizə. Onsuz da bu hərif bizi evdən çıxarmağa fürsət axtarır. İkinci dəfə kirayə haqqını gecikdirsək dərhal bizi küçəyə atacaq. Bunu bilə-bilə pulu niyə götürmədin?..

SİDDİQƏ: Gəlinin atası gətirmədi pulu...

CAMAL: Bu günə pulu gətirəcəyinə söz verdiyi üçün mən də maaşımı ona borc vermişdim. Belə şeymi olar?..

SİDDİQƏ: Xəbər göndərib ki, sabah gətirəcək...

MAHİR: Nahara yaxın gətirərəm dedi, ata. Məni görəndə dedi...

CAMAL: İnşallah!..Reyhanı al qucağına, gətir yatağına.

(Mahir içəriyə keçir. Reyhanı qucaqlayıb yatağına gətirir).

CAMAL: (bir az əsəbi). Haydı, gecəniz xeyrə qalsın.

(Camal pərdə ilə ayrılmış yerə keçir. Pijamasını geyir. Gəlin ortada olan məcməini yerdən qaldırır).

GELİN: Gecəniz xeyrə qalsın...

DİGƏRLƏRİ: Sənin də.

(Gəlin də otağına çəkilir. Mahir yatağına uzanır. Siddiqə işığı söndürür və içəriyə keçir. Yatağa girir. Camal da yataqdadır, amma siqaretini tüstülətməkdədir. Qarı yenə də qurdalanmaqda davam edir).

CAMAL: ...Birdən pulu gətirmədi?..

SİDDİQƏ:  Öz əlinlə vermisən, ondan sonra da xoflanırsan.

CAMAL: Əlimyandı mənə pul lazımdı dedi, mən də yox deyə bilmədim.

SİDDİQƏ:  Verməyəydin. Maaşı verərlər?..Kirayəmi ödəyəcəyəm, odun, kömür alacağam desəydin, əl çəkərdi yaxandan...

CAMAL:  Kirayəni ayın yeddisində ödəyəcəyimizi bilir. Odunun, kömürün də o günə qədər çatacağını yəqin gəlindən öyrənibmiş. Nə edim, verməsəydim, deyəcəkdi ki, simiclik edirəm. Olacaqdım pis!..

SİDDİQƏ:  Verib də pis olmaqdansa, verməyib pis olmaq daha sərfəli deyilmi?..

CAMAL:  Allahım, nə düşüncəsizlik elədim?..Birdən pulu gətirmədi?..

SİDDİQƏ:  Gətirər gətirər. Canını sıxma. Amma bir də bundan sonra igidlik göstərib maaşı sağa-sola səpələmə.

CAMAL:  Tövbələr olsun, vermərəm, anam. Deyirsən, yəni, pulu qaytarar?

SİDDİQƏ:  İnşallah qaytarar.

CAMAL:  Tərəddüd eləyirsən... Birdən qaytarmadı?..

SİDDİQƏ:  Qaytarar dedim də  qaytarar. Qızı bizdə. Necə qaytarmaz?.. amma daha bundan sonra məbadə belə səhvə yol verəsən!..

CAMAL:  Elə danışırsan ki, elə bil,  sən ömründə heç vaxt səhvə yol verməmisən?..

SİDDİQƏ:  Nə səhv eləmişəm?..

CAMAL:  Daha neyləyəcəksən ki?..İşsiz-gücsüz oğlanı sən zornan evləndirmədin?..Bu ipiboş Tahirə evlənmək yaraşar?..Camaatın yanında rüsvay elədin bizi.

SİDDİQƏ:  Nə bilim...Dedim, ağlı başına gələr heç olmazsa...

CAMAL: Əcəb ağlı başına gələn adam tapmısan!..

SİDDİQƏ: (duyğulanıb). Bayırdakı ağaclara bir baxsana. Ağacları görmürsən, heç?..

CAMAL: Nə olmuş ağaclara?..

SİDDİQƏ: Qoy hələ bahar gəlsin. Tumurcuqlar, çiçəklər açsın. Ağaclar o zaman dim-dik olacaq. Bizim İpsiz Tahirimiz kimi...Amma o ağacların meyvə verdiyi zamanları da görməliyik. İri-iri almalar, armudlar...O zaman ağaclar beləcə dik qala biləcəkmi?..Hamısı bükər boynunu. Ağır gələr meyvələr və çəkərlər budaqları aşağıya... Bizim halımız da elə bu ağaclara bənzəyir. İpsiz Tahiri ona görə evləndirdim ki, sabah-birigün uşağı olsa, başını heç olmasa, endirər aşağıya deyə düşündüm...

CAMAL: Bəh-bəh!..Tam adamını tapmısan! Kürəyini dayayıb atasına, yeyib-içib, şıllaq atır.

SİDDİQƏ: Bax, görəcəksən, əvvəl-axır uşaqlarımız düzələcəklər. Sənə də mənə də kömək eləyəcəklər.

CAMAL: Yaşıl ayın başında bizə kömək eləyərlər...Sənin ki, oldu ölmə eşşəyim ölmə məsələsi...

SİDDİQƏ: Elə danışırsan ki, elə bil, öz cavanlığından xəbərin yoxdu?.. Ələ-ovuca sığmırdın. Evləndiyin ilk günü, toy gecəsi gəlini evdə qoyub arvadbazlığa getmirdin?..Ağzımı açma!..Tam üç gün, üç gecə yolunu gözləmişdim.

CAMAL: (deyəsən xoşuna gəlib). Canım, sən də aləmi qarışdırma da...

SİDDİQƏ: İşinə yaramayanda qarışdırma deyirsən, xeyir ola?..Hələ iki il olmadı ki, evlənmişdik. Az qalmışdı ki, zatı bəlli olmayan birisini ortaq gətirəcəkdin üstümə.

CAMAL: Ay arvad, sən nə danışırsan? Kimsəsiz bir qadındı. Gördüm ki, onu heç kim gəlmir qarşılamağa, aldım gətirdim evə. Müsəlman

deyilik biz?..Stansiyada buraxa bilməzdim ki, yazıq qadıncığazı?..

SİDDİQƏ:  Dedim sənə ağzımı açma, Camaaal!..Altımızdan yatağımıza qədər çəkib qadına verdin. Evdə-eşikdə oturmayan sən, evdən çıxmaz olmuşdun. Nə var, yalan deyirəm?..

(Qarı nəfəsini qısıb, qulaqlarını şəkləmiş söhbəti dinləməkdədir. Əli ilə arada bir  "Oooh" çəkir).

CAMAL: İndi sənin bu dediklərinlə oğlanların avaraçılığı arasında nə əlaqə var?.. Bəyəm mən haqsızam? Belə avara-sərgərdan dolaşmaları doğrudur səncə? Mənə qalsa, bütün bunlara bais, onların ətrafında olan dost-tanışlarıdır. Ona görə də işləri tərs gedir. Allahı sevirsən, söylə, bu İpsiz Tahirin düz-əməlli bir tay-tuşuna heç rast gəldinmi?.. Harada bir it, dılğır, bambılı adam varsa, mütləq  gəlib bunu tapır. İtlərlə dolaşan bir baltaya sap ola bilərmi?.. Bunun ən azı əlindən gələ biləcəyi peşə, olsa-olsa şoferlikdir, onun da öhdəsindən gələ bilsə barı.

SİDDİQƏ:  Gec oldu daha, yataq artıq. Onsuz da erkən qalxmalıyıq.

CAMAL:  Niyə erkən qalxmalıyıq?..

SİDDİQƏ:  Eşitmədin?..Ev sahibi Həmid gələcək. Haydı, yat artıq. Bu nə  iydir gəlir? A...a...a...Bu nə iydir, görəsən?..(ikisi də birdən yatağa düşmüş siqareti axtarırlar. Siddiqə tapır. Söndürür. Camal günahkar kimi yorğanı başına çəkir. Siddiqə yaman hirslidir). Uşaqların yaxasını burax, bir az da özünə nəsihət elə. Allah sənə ağıl versin.! Yorğanı kor günə qoydu...(Qarı yenə "Oooh" çəkir).

***

(Sabah. Hamı yatıb. Hətta Qarı nənə də yatıb.İpsiz Tahir qalxır. Başı hərlənir, yenə girir yatağa).

TAHİR:  Qalx, qalx...

GELİN:  Iıhı...

TAHİR: Qalx, ay qız, qalx...

GELİN: (həmişə olduğu kimi yalvaran bir səslə). Bəsdir, dürtmələdin..

TAHİR: Qalx ağəz, qalx dedim...

GƏLİN: Nə var?..

TAHİR: Zəhrimar var, çor var. Dur bir qəhvə hazırla özümüzə gələk.

GƏLİN: Görsə əgər?..

TAHİR: Kim görəcək?..

GƏLİN: Atan...Gəldi dünən gecə...

TAHİR: Gəldi?.. (qulaq asır). Görməz, görməz. Heç kimdən səs-səmir çıxmır. Yalla!..

GƏLİN: Bir az daha...

TAHİR: Əldən zirək ol, demədim!..

GƏLİN: (sifətini turşudaraq yataqdan qalxır). Sabah sabah qoymaz ki...

TAHİR: Tutub indi səni...ayaqlarından asaram tavandan. Mırıldama!..

GƏLİN: Noldu ki?..

TAHİR: Daha nə olacaq?..Günah məndə, baxıram, axır vaxtlar bədənin gicişməyə başlayıb...Deyəsən, dərsini verməli olacağam!..

GƏLİN: (xalatını geyərək). Mən neylədim, axı?..

TAHİR: Sifət sallamağına bir bax!..

GƏLİN: Nə olub sifətimə?..

TAHİR: Uçastkovunun sifətinə oxşayır!..

GƏLİN: Yox a?..

TAHİR: Sus, sus, sus!..Bəsdir əngə verdin, əldən zirək ol. Atam

görməsin.

(İpsiz Tahirin bağırtısına Qarı diksinərək oyanır. Gəlin dəhlizə çıxır. Qarı oyansa da özünü elə göstərir ki, guya yatıb. Gəlin ocağı yandırıb qəhvədanı ocağın üstünə qoyur. Bu arada İpsiz Tahir yenə də yatmağa başlayıb. Gəlin sobanın altını səssizcə təmizləyərək odunları yığır, sonra da onları yandırmağa başlayır. Daha sonra Reyhanın, Mahirin, hətta Qarının üstlərini örtür. Ərinin qəhvəsini tələm-tələsik otağa götürür. Qarı yenə qulaqlarını şəkləmiş, içəridəki danışıqları dinləməkdədiir).

GƏLİN: Hiiişt...Tahir...

TAHİR: Nə var?..

GƏLİN: Hazırladım qəhvəni...

TAHİR: Başa düşdük..

GƏLİN: İçsənə, soyuyacaq...

TAHİR: Başım çatlayacaq...

GƏLİN: O qədər ki, sən içirsən, əlbəttə, çatlayar...

TAHİR: Nə deyirsən, aaz?..

GƏLİN: Bir şey demədim ki...

TAHİR: Dedin, dedin. Nəsə dedin?..

GƏLİN: Dedim ki, xəbərin varmı, nə qədər içmisən?..

TAHİR: Sənə nə var aaazz?..Pulunu səndən alıram?..

GƏLİN: Məndən almırmış...

TAHİR: Asaram tavana ayaqlarından haaaa!..

GƏLİN: Asana bax...

TAHİR: Səni qulaqlarından divara mıxlamasam nakişiyəm!..

Xoşuna gəlmir, bas bayıra, get atanın xarabasına!..

GƏLİN: Mən burada köləyəm?..

TAHİR: İşinə gəlirsə!..Həm də ona kölə deyilməz, əsir deyilir, kəndçi!..

GƏLİN: Almayaydın məni o zaman. Şəhərliynən evlənəydin...

TAHİR: (birdən arvadını özünə sarı çəkir). Zarafat eləyirəm, gicbəsər!..

GƏLİN: Oyanarlar...

TAHİR: Oyansınlar də...

GƏLİN: Eləmə...Oyanarlar...

TAHİR: Vecimə deyil!..

GƏLİN: Qəhvə soyuyacaq...

TAHIR: At o yana qəhvəni!..Qəhvə-məhvə yeridir?..

(Qarı huş-guş ilə qulaq asmaqdadır).

GƏLİN: O qapını...

TAHİR: Nə qapı-qapı salmısan?..

GƏLİN: Bağlayaq...

TAHİR: Bağlıdır.

GƏLİN: Kilidləyək...

TAHİR: Mənim otağıma kim izinsiz girsə, mıxlayaram onu divara...

GELİN: Atan evdədir...

TAHİR: Olsun da...

GƏLİN: Sonra necə çiməcəyik?..

TAHİR: Məcburuq çimməyə?..Çimmərik.

(Tahir arvadına ehtirasla sarılır, tam yorğanı başına çəkdiyi an, Camal yatağından qalxıb dişarıya çıxır).

CAMAL: Qalxıııın!...Qalxıııın!..Ölü torpağı səpiblər üstünüzə!..

(Qarı yenə də özünü yatmış kimi göstərir).

GƏLİN: Dedim mən sənə...

TAHİR: Sən ölməyəsən, bu evdə qoymazlar, adam balası kimi...zad eləyək!...

CAMAL: Gəliiin!...Sobanı yandırıb da hara yoxa oldun?..

GƏLİN: Gəldim ata, gəldim...

(qəhvə fincanını yatağın altında gizlətmək istəyir).

TAHİR: Bəri ver..

GƏLİN: Birdən girdi içəri?..

TAHİR: De ki, yatıb. Qapını da çək.

GƏLİN: (dəhlizə çıxır). Buyur ata.

CAMAL: Çay üçün su niyə qaynatmamısan?..

GƏLİN: Erkəndi deyə, qoymadım, ata...

CAMAL: Nə erkən?..Saatdan xəbərin var?..Az qalıb günorta olsun.

(Mahirə). Sən də bəsdir uzatdın ayaqlarını.

QARI: (oğluna yaltaqlanaraq). Erkən qalxanın bərəkəti çox olurmuş.

REYHAN: Aaaa...Atam gəlib ki...(Camalın əlini öpür).

CAMAL: Necəsən, mənim balam?..

REYHAN: (utancaq). Yaxşıyam hələ ki...

(Reyhan ayaqdadır. Gözlərini bir nöqtəyə dikir. Sanki kiminləsə

danışırmış kimi 15-20 saniyəyə qədər başını yavaş-yavaş tərpədərək beləcə dayanıb durub).

CAMAL: Yenə gözü yol çəkir qızımın.

(Reyhan normal halına dönür).

QARI: (əli ilə tualetə götürülməsini istəyir). Camaaal!...Oğluuum!... (Camalla Mahir hərəkət edirlər, Qarını başları üzərinə alıb bayıra çıxarırlar).

SİDDİQƏ: (gəlir). Yenə də?..

GƏLİN: Hııı...

SİDDİQƏ: Nə ölən kimi ölür, nə qalan kimi qalır. Görəcək günlərim varmış innən belə. İndi də bir saat abdəst alacaq..

TAHİR: (don-köynəkdə). Yol verin...(qaçaraq).Yol verin dedim!..

GƏLİN: İçəri doludur.

TAHİR: İçəri nə zaman boş olur ki?..(Sobanın önündə qovrulur). Allaaah!..

SİDDİQƏ: Bağırma, dəli Vecsizim bağırma.

TAHİR: Sən mənim yerimə olsan, bağırmazsan?..(dişarıya). A balam, tez olun da!..Öldük ki!..

CAMAL: (səsi gəlir). Partlama!..

SİDDİQƏ: Bağırma, oğlum

TAHİR: Zibilim çıxdı ki, burada!..

SİDDİQƏ: Atanı hirsləndirmə İpsiz.

TAHİR: İpsiz demə, qan beynimə vurur!..

SİDDİQƏ: Bə onda nə deyim?..İpsiz deyilsən, yoxsa?.

TAHİR: Bu gündən etibarən deyiləm.

SİDDİQƏ: Olmaya, iş tapmısan?..

TAHİR: Bir azdan biləcəksiniz.

SİDDİQƏ: O nə deməkdir?..Necə yəni bir azdan?..

TAHİR: (eşitməməzliyə vurur özünü). Dayan hələ zəngin olum?... Binamusam əgər adam başına bir dənə ayaqyolu tikdirməsəm?.. Özü də avropasayağı olanından düzəltdirəcəyəm. (Reyhanın pəncərənin önündə dayandığını görür). Sənə vurduğum sillə deyəsən, xoşuna gəlib!..İtil, qız, pəncərənin qabağından!..

REYHAN: Baş üstə abi.

TAHİR: Nə edim indi, evin ortasına boşaldım?..

CAMAL: (səsi gəlir). Oha...Oha!...Ayısan ki, ayı!...

SİDDİQƏ: Atanı hirsləndirmə. Yenə gecə harada idin?..

TAHİR: İçirdik...

SİDDİQƏ: Bu içki məclislərin nə zaman bitəcək?..

TAHİR: Qeyd eləyirdik.

SİDDİQƏ: Hər gecə qeyd eləmək olar? Bu qədər pulu haradan tapırsan?

TAHİR: Dostlarımın canı sağ olsun.

SİDDİQƏ: Atan haqlı imiş. Sənin kimi övlad heç düşmənə də qismət olmasın. Curları ilə içirmiş. Borca girib içirsən, eləmi?..

TAHİR: Borcla deyil, elə-belə...

SİDDİQƏ: Nə olub belə, sənin qara gözünə, qara qaşına aşiq olublar ki, səni gündə nisyə içirdirlər? Qarşılıqsız arvad heç ərinə yaxın durmur.

GƏLİN: (dərdli). Boynumu, boğazımı, biləyimi qurutdu. Üç dənə

bilərzikdən biri də qalmadı...

TAHİR: (arvadına bir təpik atır). Heyvan!..Səni indi tavandan asaram!

SİDDİQƏ: Doğru söyləyir gəlin. Hara getdi bu bilərziklər?..

TAHİR: (arvadına). Aaazz, sənə deməmişəm, ağzını yum?..

(Tahir gəlinin üstünə yüyürərkən Camal və Mahir Qarını içəriyə daşıyırlar.

CAMAL: Nə əcəb hələ partlamamısan?..Biz çıxdıq axır...

TAHİR: (gəlinə yavaşca). Səninlə sonra görüşərik. (Bayıra çıxarkən dıgərlərinə sezdirmədən gəlinə bir təpık atır).

GƏLİN: Ancaq döyməyi bilir...

SİDDİQƏ: Sus sən də, ərini daha saymırsan deyəsən...

GƏLİN: Bir şey demədim...

(Reyhan böyük qardaşının yoxluğundan istifadə edib pəncərənin önünə keçir. Qarı iflic olduğundan gözucu ilə namaz qılır. Önündən keçdiklərində namazı pozulmasın deyə əsasını irəliyə yerləşdirmişdir. Gəlin sobaya odun atmaq istəyir).

CAMAL: Atmayın artıq. Odun, kömür qalmayıb daha. Bu gün atan pulu gətirsin, sonra odun, kömür alarıq.

GƏLİN: Suyun isti oldu, ata. (Camalın üzqırxanına su tökür). İşığın qabağını kəsmə, Reyhan.

(Gəlin yerə süfrə salır, Camal da ülgücünü əlinin içiylə itiləyir. Güzgünü silir. Tahirin girdiyini görən Reyhan pəncərənin önündən çəkilir. Siddiqə çıxır, Tahir otağına keçir. Geyinir.).

QARI: (Reyhanın önündən keçdiyini görür). Allahü əkbər! Pozdun namazı.

CAMAL:  Önündən keçmə, mənim balam.

SİDDİQƏ:  Haydı millət, süfrəyə. Tahiiir!...Haydı...Yenə başladın!...

CAMAL:  Nə?..

SİDDİQƏ:  Tam yemək üstü...

CAMAL:  Qarışma.

SİDDİQƏ: Bir saat səni burada gözləsin millət?..

CAMAL:   Gözləməyin, başlayın yeməyə. (Hamı toplanır süfrənin başına). Gözləməyin, bismillah eləyin.

SİDDİQƏ: Bir az sonra olmazdı ki, üzünü qırxasan?..

CAMAL:  Olmaz.

TAHİR:   Fikir vermə ana.

CAMAL:  Sən orada mırtıldama!..

TAHİR:   Nə dedim ki?..

CAMAL:  Axşam yenə hansı cəhənnəmdə zəhərlənmişdin?..

TAHİR:  Çölbaşına getmişdik. Məcburi.

CAMAL:  Sən nə zaman adam olacaqsan, it?..

TAHİR:  Sənə nə?..

CAMAL:  Bu saat tutub sənin atanın ağzını!..

TAHİR:   Süfrə başındayıq  söyüş söymə...

CAMAL:  Heyvərə!..

TAHİR:  İşə düşmədik?..Biz də hazırlaşırıq ki, bunlara yaxşı xəbər verək...

CAMAL:  Hələ dilin də  var, danışmağa?..

TAHİR: Susdum, susdum.

CAMAL: Susmayıb nə qələt eləyəcəksən? Sənin bu evə heç olmasa, bir dəfə də olsun mənfəətin dəyib?..

TAHİR: Səndən pul istəyirəm?..

MAHİR: Abi, allahı sevirsən sus.

TAHİR: Sən qarışma...

CAMAL: Daha neçə yaşına qədər atanın cibi ilə dolanacaqsan, hə?..

TAHİR: Elə danışırsan ki, sanki sən bizə hər gün yağ-bal yedirdirsən?..

CAMAL: Özün qazan, özün də hər gün zəfəran-plov ye.

SİDDİQƏ: Bəsdirin, bir-birinizi didişdirməyin daha!..

CAMAL: İt hərif!...

TAHİR: Sən özün kimsən?..Dəmir yollarında müşavir.

CAMAL: Sənin sülaləni!..İç, veyil-veyil gəz, eşşəkoğlu eşşək!..

TAHİR: Çalışdığım vaxtlarda içdiyimi gördünüzmü heç?..

CAMAL: Əyyaşlıqdan başın açılır ki, maşın tapasan? Bir bax, Davuda. Ondan ibrət götür. İçmir. Qumar oynamır. Dostu-mostu yox. Tərbiyəsi yerində. O da işləmək üçün maşın tapammır. Sən bu halınlamı maşın tapacaqsan?..

TAHİR: Nolub mənim halıma?..

CAMAL: Daha nə olacaq?..

TAHİR: Kimdən istəsəm alaram.

CAMAL: Əhmədin maşını boş. Elə isə niyə almırsan?..

TAHİR: Mən onun üçün oyun-oyuncaq deyiləm. Heç kimdən söz götürmərəm. Şoferəmsə, demək ki, şoferəm! Çayxanada o qədər adamın

yanında rüsvay etdi məni. Pah, maşının açarı bir az əyilibmiş. Əyilər də niyə əyilməsin? Allahın yaratdığı deyilmi? Biz belə əyilirik, o ki, qaldı açar ola?..

CAMAL: Sənin dostun bundan artıq olmaz ki?..

TAHİR: Əldəqayırma dost. Yaxşı günün dostudur yalnız.

CAMAL: Hələ bir səni evləndirdik də...

TAHİR: Kim məcbur elədi sizi?..İki ayağımı bir başmağamı dirədim ki, evləndirəsiz? Özünüz istədiniz.

CAMAL: Burax bu içkini-miçkini, gir bir maşına. Çalış alın tərinlə.

TAHİR: (qalxır. Atasının əllərini tutur). İndi üzünü qırx görüm, necə qırxırsan. Haydı, haydı.

SİDDİQƏ: Balam nə oyun çıxarır?..

QARI: Başı xarab olub bunun, - nədir?

TAHİR: (atasının əllərini buraxır). Əlim-qolum bağlı, ata. Üç gün onun maşınında, dörd gün o birinin. Maşınsız olmur. (Pauza). Dünən günorta Mahmudun maşınında çalışmağa başladım. Gecə də apardı məni Çöl başına. Həm yedik-içdik, həm də söhbət elədik. Maşını təzələyib, yəqin bilirsiniz. Gecə sən çalış, gündüz də mən dedi. Beləcə razılaşdıq.

CAMAL: Mən biləni, onun şoferi vardı.

TAHİR: Razılığa gələ bilməyiblər. Gecə işləmək ona ağır gəlib. Şoferi deyib ki, bu iş ona əl vermir.

SİDDİQƏ: Nə gözəl!..

CAMAL: Hə, bax, bu başqa məsələ.

MAHİR: Bəs niyə demirdin, abi?..

SİDDİQƏ: Səhərdən bəri ağzında gəvələdiyin bu idi?..

GƏLİN: Mənə hətta söyləmədi.

REYHAN: Abi... (ailədə sevinc).

SİDDİQƏ: İş həmişə olacaq?

TAHİR: Həmişə. Elə danışdıq.

QARI: Dualarım yaradı. Vallahi, hər namazda ən azı beş dəqiqə dua eləyirdim. İkiniz üçün də.

(Veyl Tahir cibindən portmanatını çıxarır. Bir az anasına, bir az da gəlinə pul verir).

QARI: Hamısı dualarımın üzündən oldu...

TAHİR: Sağ ol, nənəcan. (Nənəsinə də pul verir).

QARI: (həm alır, həm də naz eləyir). Nə zəhmətdi çəkirsən?..

TAHİR: (Mahirə də verir). Sağa-solə səpələmə.

CAMAL: Bədxərclik eləmə, oğlum. Odun, kömür alardıq...

SİDDİQƏ: Gəlinin atası gətirəcək hər halda...

TAHİR: Toplam iki min beş yüz lirə payladım, ata.

SİDDİQƏ: Mənim gözəl oğlum...

QARI: Başına dönüm, zeytun almaq yadından çıxmasın.

SİDDİQƏ: O corabları çıxar. İçəridə yun corab var, gətir gəl, geysin. (gelin gedir). Ana ürəyi, bax. Keçən gün ayaqqabılarım su buraxır demişdi, az qalmışdı ürəyim parçalansın.

QARI: (yaltaqlanır). Ayaqları gərək isti tutasan qışda. Allah eləməmiş, babasildən-zaddan tutar səni bu cavan yaşında dərdə düşərsən, qadası...

TAHİR: (gəlinin gətirdiyi corabları alır). Həə...bir az əvvəl həm it idim, həm də avara..İndi bax, iş tapan kimi bu adlar üstümdən götürüldü...

Allahın işi. İş tapmağına tapdım. Amma heç ardını düşünmürsünüz. Deyin görək, düşünürsünüz, yoxsa yox?..

SİDDİQƏ:  Başa düşmədim.

TAHİR:  Bu adam məni niyə işə götürdü?..Istəyi odur ki, gecə də maşını boş qalmasın, daha çox qazancı olsun, elə deyil?..

CAMAL:  Tutaq ki, elədir.

TAHİR:    Bu işdə bizim mənfəətimiz varmı?..

SİDDİQƏ.  Əlbəttə var.

TAHİR:     Bax, ağlınız elə bu qədər işləyir.Onun-bunun cibinə çalışırıq. Əgər maşın özümüzünkü olsaydı, kimin üçün işləyəcəkdik?..Özümüzə, elə deyil?..Nə vaxt ki, özümüzün maşını olar, onda tam mənada rahatlığa qovuşarıq. Beyninizi çalışdırsanız nə dediyimi başa düşəcəksiniz.

CAMAL:  Hər halda boş durmaqdan ki, yaxşıdır?..

TAHİR:    Onu deyirəm də, öz maşınımız olsa bunun nəyi pisdir ki?..

CAMAL:  Doğru.

SİDDİQƏ:  Haqlısan.

QARI:        Düz sözə nə deyəsən.

TAHİR:  (qalxar). Gecikərəm, durum gedim. Bu gün iş olacaqmış, nahardan sonra maşını mənə verəcəklər. Sabah səhər gələcəm evə. Xudahafiz.

SİDDİQƏ:  Heç olmasa, bir şeylər yesənə, oğlum.

QARI:  Sındır o yumurtanı, uşaq bir az qayqanaq yesin.

CAMAL:  Bayaqdan bişirəydiniz də, səhərdən çənə döyürsünüz.

TAHİR.  Doydum. (çıxır).

CAMAL: Paltonu geyin.

SİDDİQƏ: Şərfi də dola boynuna.

QARI: Ayağına qaloş gey, başına dönüm. (Tahir çıxmışdır).

CAMAL: Əslində pis uşaq deyil bu.

SİDDİQƏ: Ovcuma tam beş yüz lirə qoydu...

QARI: Həəəə...Ona görə ki, səhərdən axşama kimi dua eləyirdim.

SİDDİQƏ: Sənə nə qədər verdi?..

QARI: Hələ baxmamışam.

SİDDİQƏ: Lap yaxşı baxmısan. Ən azı beş yüz də sənə verdi, hərhalda.

QARI: Nə beş yüz?..Vur-tut, iki yüz əlli lirə pul verdi mənə. Xeyirli olsun, kaş ki, sən də girəydin işə.

SİDDİQƏ: Bizdə o bəxt hanı?..

MAHİR: O da olur inşallah. Mən də çıxıram.

SİDDİQƏ: Haraya gedirsən, oğlum? (çıxır).

MAHİR. Boş itdən mənzil soruşulurmu, ana?..(çıxır.Pauza).

SİDDİQƏ: Ürəyim sızıldayır...

QARI: Mahir də tapacaq bir iş. Demədi deməyin, dualarım ona da kömək edəcək.

CAMAL: O zaman rahatlığa qovuşarıq inşallah. Üç əldən bu evə pul yağsa, yığıb-yığışdırmaq mümkün olmayacaq. Bəh-bəh!..

SİDDİQƏ: Bəlkə geniş bir evə belə daşınarıq.

CAMAL: Bəlkə niyə?..Mütləq.

QARI: Bəlkə rəngli televizor da alarıq.

SİDDİQƏ: Hər şeyimizi almışıq, bircə o əskik...

CAMAL: Keçəl başa daraq yaraşar?..

QARI: Rəngli televizora baxmasam, öləndə o dünyaya gözüaçıq gedərəm.

CAMAL: Rəngsizi sənə bəs eləmir, ana?..

QARI: Rəngli olan yerdə rəngsizi neynirəm?..

CAMAL: Onu haraya qoyacağıq?..Yer yoxu ki...

QARI: Siyah-bəyazın yerinə qoyarıq.

CAMAL: Rənglini belə bir yerə qoymaq olar?..Onun üçün gərək xüsusi altlıq alasan.

QARI: Rənglini siz alın, mən altını alaram.

SİDDİQƏ: O niyə?..Hansı dağda qurd öldü?..

QARI: O da mənim sizə hədiyyəm olar. Alıb-verərəm. Yetər ki, siz rənglini alın.

SİDDİQƏ: Tək altlıqla bitmir ki, iş. Antennanın kabelini də dəyişdirmək lazımdır. Elə onu da sən alarsan.

QARI: Mənim o qədər pulum yoxdu. Hələ altını alanda heç bilmirəm, pulum çatacaq, yoxsa yox, amma day ağzımdan "alacağam" sözü çıxıbsa, demək ki, alacağam.

SİDDİQƏ: Heç ağlım kəsmir ki, onu alasan. Son anda bir bəhanə uyduracaqsan.

QARI: Televizoru alın, görün, alıram, ya yox. (qapının zəngi).

SİDDİQƏ: Ortalığı yığışdırın.

(Gəlinlə Reyhan tələsik ortalığı yığışdırarkən Siddiqə qapını açır).

SİDDİQƏ:  Rafiq, xoş gəldin qadası...

RAFİQ:   Xoş günün olsun, bibi. Mahiri görməyə gəldim.

SİDDİQƏ:  Elə indicə çıxdı.

CAMAL:  Gəlsənə oğlum.

RAFİQ:  Narahat olmayın, əmi.

CAMAL:  Nə narahatçılıq? Keç içəri. Bir stəkan çayımızı iç.

(Rafiq içəri daxil olur, ayaqqabılarını çıxarar. Utancaqdır).

QARI:  Xoş gəldin, oğlum.

REYHAN:  Xoş gəldin Rafiq qardaş.

RAFİQ:  Xoş gününüz olsun.

SİDDİQƏ:  Bir şey eşitdik, doğrudurmu? Şərq tərəfə  gedirsən?..

RAFİQ:  Bəli. On beş gündən sonra Ağrı bölgəsinə gedirəm.

SİDDİQƏ:  Bəs atan?..

RAFİQ:  Onu da aparacağam. Əlac yoxdur. Burada tək qala bilməz kişi.

SİDDİQƏ:  Evi nə edəcəksiniz?..

RAFİQ:  Kirayə verdik, Siddiqə bibi.

(Gəlin çay gətirir, Rafiq alır).

CAMAL:  Nə rahatdınız!..Ağrıda nə edəcəksiniz?..

RAFİQ:  Məcburi gediş Camal əmi. Şərqə göndərirlər, qulluğa.

QARI: Evlənmək fikrin yoxdu, Rafiq?..

RAFİQ:  Qismət...

QARI:  Amma bir az da insan özü tapmalıdı qismətini. Elə bir halal

süd əmmiş qız yoxdumu?..

RAFİQ:  Əslində...yəni, heç də pis olmazdı. Getdiyim yerdə qalmağa ev də verirlər. Amma atama baxa biləcək bir qız olmalıdır ki, mən də evlənə bilim. Baxıcıya möhtac olan bir qayınatanı evdə hansı qız istəyər?..

CAMAL:  İstəyənlər tapılar.

QARI:  Görürsünüz, dünyada nə xeyirxah övladlar var?..Sənin atanın bəxtı gətirib. Onun rahatlığı üçün evlənmirsən.

RAFİQ:  Zatən burada nə ömrü qaldı ki!..  Ayaq altında qalmasını istəmirəm...

SİDDİQƏ:  O biri bacının yanına apar!..

RAFİQ:  Keçən il aparmışdım. Amma bizim kürəkən bir az tündməcaz adamdır. Yanında bir-iki dəfə səsini qaldırıb. Bu da yaşlı adam, əlbəttə ki, xətrinə dəyib. Qala bilməyib orada. Şərtləri qəbul edə biləcək bir qız tapsam, əlbəttə, evlənərəm. Nə isə...Gəlməkdə məqsədim Mahirin işi ilə əlaqadardır.

CAMAL:  Xəbərimiz var, amma ayrıntılarını bilmirik.

RAFİQ:  Bizim komissarın tanıdığı bir adam var. İstanbulda bir mətbəənin personal müdiridir. Mahir mənim yanıma tez-tez gəldiyi üçün bizim komissar onun vəziyyəti ilə maraqlanıb.

SİDDİQƏ:  Sağ olsun.

QARI:   Allah razı olsun.

RAFİQ:  Bir-birimizə əl tutmalıyıq bibi.

CAMAL:  İş haradadır?..

RAFİQ:  İstanbulda. Amma maaşı yüksəkdir. Gələcəyi də parlaq.

CAMAL:  İstanbulda ha?..

SİDDİQƏ: Kimimiz, kimsəmiz yox ki, orada. Gərək gedib ev tapsın, oraya yerləşsin. Nə edəcək orada təkbaşına?..

RAFİQ: Ay Siddiqə bibi, millət iş üçün Ərəbistan çöllərinə gedir. İstanbula buradan neçə saatlıq yoldur? Günorta minsə, axşam buradadır. Məncə bu fürsəti əldən verməsin.

SİDDİQƏ: Buralarda yoxmu münasib bir iş? Sənin çevrən genişdir, Yardımçı olun da burada əməlli bir işə qoyun onu, mümkünsə. Özün bilirsən ki, o, lise məzunudur. Şərt deyil ki, mətbəədə çalışsın?

RAFİQ: Tapa bilmədik Siddiqə bibi. Zatən mən də on beş gündən sonra gedirəm. Mahirin iş məsələsi ilə kim maraqlanacaq? Mənə qalırsa, bu fürsəti heç qaçırmasın Mahir. Düzünə qalsa, elə özünün də getmək fikri var. Sizin razılığınızı gözləyir.

CAMAL: Nə zaman getməlidir?

RAFİQ. Günü bu gün. İmkan varsa elə indi çıxsın yola. (pauza).

GƏLİN: Bir çay daha süzümmü Rafiq qardaş?..

RAFİQ: Komissarıma indi gəlirəm dedim.

CAMAL: İçsəydin oğlum.

RAFİQ: Sağ ol, Camal əmi. Mən artıq qalxım. Mahir gəlsə mənə bir baş çəksin. Bu gün polisdə növbədəyəm.

SİDDİQƏ: Baş üstə oğlum, deyərik ona.

CAMAL: Sağ ol, Rafiq.

QARI: Zəhmət çəkdin, qadan ürəyimə.

RAFİQ: Salamat qalın.

SİDDİQƏ: Atana salam söylə.

QARI: Bizdən də.

RAFİQ: Söylərəm. (çıxır. Pauza).

QARI: Bu Rafiq çox yaxşı oğlandı, Camal.

CAMAL: Allah razı olsun ondan.

SİDDİQƏ: Amma İstanbul məsələsi çətin olacaq...

CAMAL: Mən də istəmirəm getməsini, amma başqa bir çarəmiz varmı?

SİDDİQƏ: Harada qalacaq tifil? Aldığını da kirayə pulu verəcək. Bu işi gərək yaxşı-yaxşı fikirləşək.

CAMAL: Ana, bu işə sən nə deyirsən?..

QARI: Yəni mənim də söz danışmaq haqqım var?..

CAMAL: O nə deməkdir? Əlbəttə var. De gəlsin, ana.

QARI. Görmürsən ki, anası istəmir?..

CAMAL: Onun istəyiylə olmaz ki, bu iş?..

QARI: Mənə qalırsa, deyirəm ki, qoy getsin. Gəzən ayağa daş dəyər.

SİDDİQƏ: Sənə belə yer var bu evdə. Bir uşağıma yer tapılmayacaq?

QARI: Mən onun özü üçün istəyirəm qızım. Aslan kimi dəliqanlıdır, boş-boşuna oturub evdə. Fikirdən özünə yer tapa bilmir. Allah eləməsin, ağlına, fikrinə bir şey olar...

SİDDİQƏ: Sən də bom-boş oturursan. Ağlın da, fikrin də məndən daha yaxşı işləyir.

CAMAL: (Siddiqəyə hirslənir). Sən nə danışırsan? Dediyi sözə bax! Elə ömrü boyu oturacaq?..

SİDDİQƏ: Mən demirəm ki, otursun. Burada tapsın bir iş.

CAMAL: Burada iş yoxdur, başa düşmürsən?..

SİDDİQƏ: Hamı necə tapır?..

CAMAL: Kim necə bacarırsa tapır. Bizimki tapammadı, yoxdu iş.

SİDDİQƏ: Yaxşı, nə deyirəm, getsin, beləcə üstündən qalxar yükü.

TAHİR: (gəlir, son dərəcə dilxordur. Pəncərə önündə oturmaqda olan Reyhana hücum edir). Aaaaz, sənə neçə dəfə demişəm ki, dur oradan!..

(Siddidə araya girir).

CAMAL: Xeyir ola, niyə gəldin? Bəs maşını alacaqdın?..

TAHİR: Sözünün üstündə durmadı. Köhnə şoferi ilə razılığa gəlib...

CAMAL: Hirsini qızcığazdan niyə çıxırsan? Mən burada nəyəm?..

TAHİR: İstəyirsən adı çıxsın?..

CAMAL: Sənlik deyil bu. Mən buradayam. Lazım olsa mən deyərəm.

( Tahir nəsə demək istəyir, amma vaz keçir, girir öz otağına. Bir siqaret yandırır).

CAMAL: Yox əşi, bundan adam olmaz.

SİDDİQƏ: Yox canım olmaz.

QARI: Bu adam olursa, dağdakı ayılar belə adam olar.

SİDDİQƏ: Allah bil, nə eləyibsə, o adam maşını vermədi buna.

CAMAL: Oxşayır şərt-mərt qoyub ortalığa. Dilini qarnına qoy, nə deyirlər, onu elə də heyvərə!..

SİDDİQƏ: Bunu doğduğum yerdə...

CAMAL: Daş doğaydın kaş...Bu ayının axırı nə olacaq?..

SİDDİQƏ: Ağlı dabanındadı bunun.

CAMAL: Bir iş tapır, sonra da bu işi itirmək üçün əlindən gələni beş

qaba çəkir.

QARI: Anasına bax, qızını al, kənarına bax...

(Siddiqənin tərs-tərs baxdığını görüb susur).

CAMAL: Ayıq gəzmir ki...Kimsə maşınını buna verməz, demədimmi?

QARI: Balamı düşünən yoxdu ki...Elə hər kəs Camalın üstünə düşür.

CAMAL: Gül kimi işini qaçırdı əlindən. Kim bilir nələr deyib o adama?

GELİN: Bəlkə günah onda deyil?..

SİDDİQƏ: Sən qarışma.

CAMAL: Sən də ona arxa çıx.

SİDDİQƏ: Eh, görəcək günlərim varmış, nə talesizəm mən?..

CAMAL: Bu işin daha başqa çarəsi qalmadı. Bu işlər belə getməz. Ayıracağam bu oğlanı evdən. Şələ-küləsini götürüb rədd olub getsin. Bu zülmü kimsə kimsəyə edə bilməz.

TAHİR: (gəlir). İşin əslini bilmədən elə hey danışırsınız. Bu Mahmud fırıldaqçının biridir. Həm mənə, həm də o biri şoferə söz verib. O biri olmasa, maşın boşda qalmasın deyə, məni də əldən vermək istəmir. Burada nə günahım var mənim?..(yenə içəri keçır. Pauza. Gəlin səssiz ərinin yanına gedir, oturur. Qapı çalınır. Siddiqə açır).

SİDDİQƏ: Buyur, buyur. (içəridəkilərə). Ev sahibidir.

(Özlərini yığışdırırlar. Hətta Qarı belə yerindən qalxırmış kimi hərəkətlər edir).

HƏMİD: Səlamünəleyküm.

CAMAL: (xüsüsi bir maraqla). Əleykümsəlam.

SİDDİQƏ: Buraya buyur. Reyhan, döşəkçəni gətir.

(Reyhan cəld döşəkçəni gətirir).

HƏMİD: (əlini sinəsnuə qoyaraq). Mərhəba.

CAMAL: Mərhəba.

QARI: Xoş gəldin, Həmid oğlum.

SİDDİQƏ: Xoş gəldin.

REYHAN: Xoş gəldin, Həmid dayı.

HƏMİD: Xoş gününüz olsun. (gözləri ilə evi araşdırır). Maşallah, yaxşı yerləşmisiniz.

CAMAL: Neyləməli?..

SİDDİQƏ: Amma ki, çoxuq.

QARI: Başqa çarəmiz varmı?..

HƏMİD: Bu pərdə nədir?..

CAMAL: Bizim Tahir evlənincə, onlara öz otağımızı verdik.

HƏMİD: Yaxşı eləmisiniz. Biz kimin üçün çalışırıq, qardaşım?.. Bütün analar, atalar sizin kimi olmalıdırlar əslində.

CAMAL: Elədir ki, var.

QARI: Biz də nələr etdik uşaqlarımız üçün. Camal üçün nələr eləmədim ki?..

SİDDİQƏ: Əlimizdə olsaydı daha da artığını edərdik...

CAMAL: Niyə də eləməyək, amma yox ki...

SİDDİQƏ: Nə demişlər? Adım Xıdır, əlimdən gələn budur. Neyləməli? (pauza).

HƏMİD: (birdən). Başınız sağ olsun. (Hamı çaşır).

CAMAL: Başa düşmədim.

HƏMİD: Şey ölmədi bəs?..

CAMAL: Kim?..

HƏMİD: Sizlərdən birinin öldüyünü eşitdim. Amma kimdi?..

SİDDİQƏ: Yooox. Bizdən kimsə ölmədi...

QARI. Allah eləməsin. Ölən olmadı...

CAMAL: Nə vaxt eşitmisən?..

HƏMİD: Üç ay əvvəl. İşə bax ha!..

CAMAL: Yox canım, səhvin var.

SİDDİQƏ: Kimsə ölmədi bizdən.

HƏMİD: Yahu, mən, başqası ilə qarışdırmışam yoxsa? İşə bax ha!.. Dəqiq bilirsiniz ki, sizdən heç kəs ölməyibdir?..

QARI: Adımız qədər əminik. Hələ ölən yoxdu.

SİDDİQƏ: Hələ yoxdu...

CAMAL: Keçən il qardaşım vəfat etdi. Amma üç ay öncə deyil.

HƏMİD: Yoxsa elə onu eşitmişəm?..Bəlkə də qarışdırıram. Nəysə, yenə də başınız sağ olsun!..

CAMAL: Sağ ol...

HƏMİD: Neçə yaşındaydı rəhmətlik?..

CAMAL: Səksən iki.

HƏMİD: Yaxşı yaşayıb. Bu devirdə gəlib səksən ikiyə çatmaq hər adamın işi deyil. Genə də allah rəhmət eləsin.

(Hamının uzgün bir görüntüsü vardır).

CAMAL: Nolursa olsun, axırı ölümdür. Yaxşı deyiblər: Ölümə dərman yoxdur.

HƏMİD: (özünü elə göstərir ki, guya kədərlidir). Qəzavu-qədər... Qəzavu- qədər... Onun qarşısını heç nə ilə ala bilməzsən.

CAMAL: Düpbədüz.

SİDDİQƏ: Elədir ki, var

QARI: Ala bilməzsən, doğru deyirsən. (pauza).

CAMAL: Dünən gəlmişdin deyəsən...

HƏMİD: Bəli, gəlmişdim. Narahatçılıq olmayıb ki?..

CAMAL: O nə demək?..

QARI: Bura sənin öz evindir, evladım.

SİDDİQƏ: (adamın lövbər saldığından deyəsən, şübhələnməyə başlayıb). Başqa zaman qonağımız da olarsınız.

CAMAL: Bir qəhvə içərmisən? Necə qəhvə olsun?..

HƏMİD: Allah artıq eləsin! Elə içmişkən varam. Vaxtım yoxdu. Bir – iki yerə də baş çəkməliyəm.

CAMAL: Kirayə üçün gəlmisənsə sabah ödəyəcəyik. Bizim gəlinin atasının bir az ehtiyacı vardı. Əlimizdəkiu maaşı ona verdik. Bu gün gətirəndə pulu hazır edib sabah, inşallah göndərrəm. Arxayın ol.

HƏMİD: O barədə mənim heç şübhəm yoxdur. Heç vaxt kirayə haqqını gecikdirmədiniz.Yalnız bir dəfə toy əcnasında on gün gecikdirmişdiniz, deyəsən. Nəysə ki, olanda olur da...

CAMAL: Baş o qədər qarışıq olub ki, yadımızdan çıxmışdı...

SİDDİQƏ: Yoxsa mümkünmü?..

HƏMİD: Nə isə...keçib gedib artıq. Yada salmayaq. Bu ev mənim deyil, sizindir əslində.

SİDDİQƏ: Kaş ki.

HƏMİD: Kaş ki, demə, bacı. Kaş ki, demə. Allah qismət eləyər. Sizə də qismət eləyər. Nə çarə ki, beş barmağın beşi də bir deyil. Baxın, birmi?..

CAMAL: Doğru.

QARI: Heç olurmu?..

HƏMİD: Barmaq var, barmaq var. Bu evləri tikib-düzəldərkən başıma nələr gəlmədi. Əlimin üstünə yekə bir taxta düşdü. Bir baxın, hələ də barmağım şikəstdir. Kimdən soruşsanız mənim kənddən gəldiyimi və bu daxmaları tikdiyimi deyəcək sizlərə. Hansı birini deyim? Nələr itirdik, kimsənin xəbəri yox. Amma başqasının malında, mülkündə gözü olanlar çoxdur. Zatən bələdiyyə ilə də başımız dərdə girib.

CAMAL: Necə?..

QARI: Nə oldu ki, Həmid oğlum?..

HƏMİD: Daha nə olacaq?..Xəbəriniz var xəbərdən? Guya bələdiyyə buraları müsadirə edəcəkmiş.

SİDDİQƏ: Buralarımı?..

CAMAL: Niyə?..

HƏMİD: Hökümətə niyə sualını verə bilərsənmi, Camal əfəndi? Bu, dövlətin işi. Yıxacaq yıxacaq, Atacaq atacaq. Satacaq satacaq. Asacaq asacaq.

QARI: Bizi də küçəyəmi atacaq..? Haradan biz ev taparıq?..

SİDDİQƏ: Nə vaxt?..

CAMAL: O qədər yaxındamı?..

HƏMİD: Özünüzü düşünürsünüz əlüstü. Bəs mənim işim nə olacaq? Basacaqlar ovcuma üç-beş quruş, söküb-dağıdacaqlar hər yanı. Bəs onda mən başıma haranın daşını salım?..

QARI: Bir tək sənin evlərinimi uçuracaqlar, Həmid oğlum?

HƏMİD: Elə şey olurmu?..Mənim evlərim cəmi-cümlətanı yeddi daxmadan ibarətdir. Ən azı iki yüz ev söküləcək. Görmədinizmi, arada bir gəlib buraları ölçüb-biçirlər?..Büsbütün məhəllə qalxacaq ortadan.

SİDDİQƏ: Bizə demişdilər ki, yuxari yola gedən evlər söküləcək. Buralara toxunmayacaqlarmış.

HƏMİD: Elə şey olar?..

CAMAL: Nə edəcəyik biz?..

HƏMİD: Durun, baxaq, görək nə edirik? (sanki işi həll edəcək kimi davranışlar göstərməyə çalışır). Elə bilirsiniz, asandır bu iş? İşin əslini öyrənmək üçün dərhal getdim bələdiyyəyə. Bir xeyli tanışım var orada. Sənədlərə baxan Mıstıq. Sonra. O maaş verənlərə nə deyirlər, yahu?..

QARI. Nə maaşı?..

SİDDİQƏ: Podratçımı?..

CAMAL: Podratçı ev tikənlərə deyilir. Kassirmi?..

HƏMİD: Səni çox yaşa, Camal əfəndi. Dünəndən bəri vallahi bu şoğərib kəlməni yadıma sala bilmirəm ki?..Hə, bax, o kassir Haqqı var ha, o da tanışımdır. Maaşını ödərkən imza-mimza aldığından başçı ilə arası bir xeyli yaxşıdır. Kadrlar şöbəsinin müdirinin yanına apardılar məni. Uzun- uzadı söhbət elədik. Çay, qəhvə içdik. Dedim ki, evləri sökməyinizə bir sözüm yoxdur, yaxşı, bəs bu kirayədə oturanlar necə olsun? Küçələrdəmi yatıb qalsınlar? Heç olmasa, iki ay müddət verin. Millət özünə evdən-eşikdən tapsın, ondan sonra uçurun getsin. Zatən hamısı başa düşən adamlardır dedim, sizin üçün. Müddət bitənə qədər boşaldarlar. Beləcə çox hirsli danışdım onlarla.

QARI: Dilinə sağlıq.

SİDDİQƏ: Allah razı olsun!

HƏMİD:  Axırda da onları məcbur elədim ki, mənə "hə" desinlər. Bunlar da dərhal getmişlər icra başçısının yanına və vəziyyəti on ərz etmişlər. Amma icra başçısı da inad edibmiş. Mənim başçılıq etdiyim şəhərdə gözə xoş gəlməyən, zövqümüzü pozacaq daxma-maxma istəmirəm,- deyib. Ya bunları söküb yerinə yaşayış binası tiksinlər, ya da mən bunları yerlə yeksan edər, yerində də park saldıraram deyibmiş. Yəni demək istədiyim vəziyyət bundan ibarətdir. Birlikdə buna bir çözüm tapaq deyə gəldim sizə xəbər verəm.

QARI:  Necə yəni?

SİDDİQƏ:  Doğrusu heç bir şey anlamadım.

CAMAL:  Nə edə bilərik ki?..

HƏMİD:  İndi onu başa salım sizə. Buralar ya park-bağça olacaq, ya da yaşayış massivi.Hər iki halda da boşaltmalısınız evi. O biriləri də eyni ilə çıxmalıdırlar buradan. Sizdən istəyim, mənim zərərə girməmin qarşısını alın və evi boşaldın, heç olmasa mən zərər görməyim bu işdən. Onsuz da bir podratçı ilə də görüşmüşəm, Siz bu evi boşaldar-boşaltmaz dərhal eviniz söküləcək və yeni inşaat işləri başlayacaq. Mən demirəm ki, elə indi çıxasınız. Onsuz da hələ mart ayıdır. Hər yan qar, palçıq... Aprelin on beşinə qədər yavaş-yavaş ev tapıb buradan daşının. Çalışın ki, aprelin on beşindən o yana keçməsin. Çünki, niyə?..Həmin vaxtdan etibarən inşaat mövsümü başlayacaqdır. Beləcə mən də işimi bilim.

CAMAL: Bir ay sonra aprel gəlir...

SİDDİQƏ:  Bir aya ev tapmaq asanmı?..

CAMAL:  Oğlanların ikisi də işsiz. Biz öz qarnımızı zorla doydururuq Həmid qardaş.

SİDDİQƏ:  Deyək ki, ev tapdıq, bəs depozit pulunu haradan ödəyək? Əvvəlcədən evə girərkən avans da ödəməliyik, Həmid qardaş. İnanın gücümüz çatmaz...

HƏMİD: Nəysə... əvvəl-axır, bir şey etməlisiniz. Axtaran tapar. Niyə də tapa bilməyəsiniz?..Yetər ki, axtarasınız.

CAMAL: Axtarmaq çətin deyil, Həmid qardaş. Amma bir məsələ qaranlıq qaldı, deyəsən. Biz bu işin altından qalxa bilmərik. Həm də qanuna görə bizim buradan çıxarılmamız da qeyri-mümkündür.

HƏMİD: Qanunu-manunu boşla, Camal əfəndi. Sərfəli nədir, ona baxaq. Yaxşıykən pis olmayaq.

SİDDİQƏ: Pis olursaq nə olacaq? Verərsən məhkəməyə, nə qərar çıxarsa, ona da tabe olarıq.

HƏMİD: Bu işi məhkəməyə-filana buraxmaram. Rüstəmi salaram meydana hər şeyi dərhal həll edər.

CAMAL: Rüstəm kimdir, a kişi?..

HƏMİD: Mənim dayoğlum. Həbsdən də yeni çıxıb. Məsələni gəlin böyütməyək, öz aramızda həll edək, bitsin getsin. Nəyə lazım? Pislikdən nə fayda. Düz demirəm?.. İki aylıq kirayə pulunu da almaram sizdən. Rahat-rahat evinizi taparsınız. Nə deyirsiz?..(pauza)

CAMAL: Nə deyək?..Bu mümkün deyil, Həmid Əfəndi.

HƏMİD: Son sözünüzmü?..

SİDDİQƏ: Son sözümüz.

HƏMİD: Neynək, eləysə günah məndən getdi. Vəbalı məndən qalxdı. Yenə də düşünün, vaxt var.

CAMAL: Düşünəcək bir şey yox Həmid usta.

SİDDİQƏ: Çıxa bilmərik.

HƏMİD. Olmadı bu iş. Bu işin axırı yaxşı olmayacaq.

CAMAL: Yaxşı olmayacaqsa, olmayacaq. Haqq var, hüquq var. Kimsə

sahibsiz deyil ki...İncimə, Həmid usta, çıxa bilmərik.

HƏMİD: Mən sizi necə çıxaracağımı bilirəm. Sizi adam bildim, verdim bu evi. Girib oturana qədər az yalvarmadınız mənə. Axırı pis olacaq bu işin...

TAHİR: ( uzun müddətdir ki, susmaqdadır, amma bu yerdə özünü ələ ala bilmir və gəlir bunların yanına). Bu qışda-qiyamətdə adamı evdənmi çıxararlar?

HƏMİD: İndi deyil, qarşıdan gələn ayda deyirəm.

TAHİR: Elə çıx deməklə, çıxarlarmı? Bayaqdan cəfəngiyyat danışıb baş beynimizi aparırsan! Nə bilim ev tikiləcək burada, bağça salınacaq, park düzəldiləcək!..Kimə gəlirsən sən?..Qabağında uşaq-muşaq dayanıb?..

HƏMİD: Tahiiir!...Tahiiir!...Rüstəmi yaxşı tanıyırsan, işi böyütmə!..

TAHİR: Böyüsə nə olar?..

HƏMİD: Ağzını təmiz aç!..

TAHİR: Ağzımı təmiz açmasam nə olar? Xiyar!..

HƏMİD: Xiyar sənsən, gədə!..

HƏMİD: Çıxmırıq, zırrama!..Bu saat səni ayaqlarından tavana asaram!.. (Camal və Gəlin Tahiri tutmağa çalışırlar). Rədd ol, buradan!..Heyvərə!.

HƏMİD: Kimi kimin evindən qovursan sən?..Bura sənin üçün bəyəm Texasdır?..

TAHİR: Barmaqsız köpək, rədd ol, dedim buradan!..

HƏMİD: Baxarsan sən...

TAHİR: Bir az daha burada dursan ayaqlarını qıraram, heyvan!..

GƏLİN: İşin yoxdur, bəlaya düşərik...

TAHİR: Sən qarışma!..

HƏMİD: (qapıya doğru gedərkən). Ayın sonuna qədər boşaldacaqsız evi. Bura sənin üçün Texas deyil, oğlum. Sənin bu hay-küyün qarşısında geri çəkilən deyilik. Sabah sənə göstərərəm qoçuluq necə olur? Başına nə gələcəyindən xəbərin yoxdu sənin?..Onu-bunu bilmirəm, ertəsi gün boşaldırsız evi!..

(Tahir əllərindən qurtulur. Təpik-yumruq ilişir Həmidə, o ki, var onu əzişdirir).

CAMAL: Eləmə!..

SİDDİQƏ: Eləmə!..

REYHAN: Abi!..

GƏLİN: Tahir, eləmə!..

QARI: Əlinə sağlıq, vur bu nacinsi! Gözünə dönüm!..

(Tahir Həmidi ölüncə döyür. Həmidi Tahirin pəncəsindən alırlar. Həmid üstünü-başını düzəldərək qalxar. Qapıya yaxınlaşır).

HƏMİD: Mənə də Çolaq Həmid deyərlər! (özünə gəlir). Unutma!.. Bunun hesabını verəcəksən...Haqq-hesabımı çürüdəcəyəm səninlə. Yadından çıxarma!..

TAHİR: Camaatın torpaqlarına əl qoydun!..Yerlərini əlindən aldın!.. Evlər tikdirdin!.. Bizim kimi fəqir-füqəranı çölə atdırdın!... Doymaq bilmirsən!...Oğruuuu!..Əclaf!..Alçaq!...

(Qapını bağlayırlar. Yaman qorxublar. Amma Tahirə də heyran-heyran baxmaqdadırlar. Elə hey ona baxırlar...Reyhan ayaqdadır. Bir şey söyləmək istəyirmiş kimi əlini uzadır digərlərinə...Ancaq yenə bihuş olur. Başını sərt şəkildə iki yana yırğalarkən, işıq üzərində yoğunlaşır).

P Ə R D Ə

# İ K İ N C İ   B Ö L Ü M

(Həmin gün).

REYHAN: (hər zamanki kimi yenə pəncərənin önündədır). Atam...

MAHİR: Çəkil pəncərənin önündən. Hirslənəcək.

CAMAL: (daxil olur). Bir azdan gələcək. Ortalığı yığışdırın.

SİDDİQƏ: (təlaşla). Burayamı?..

CAMAL: Buraya.

SİDDİQƏ: Bəs evinə aparacaqdıq?..

CAMAL: Evində dıvarlara əhəng çəkir. Dərhal gəlirəm dedi. Gəlin gəlmədi hələ?..

SİDDİQƏ: Gəlmədi.

CAMAL: Süfrəni burada düzəlt.

SİDDİQƏ: Nə süfrə, Camal?..

CAMAL: Nə deyirəm, onu elə. Buraya, buraya. Üstünə də bir parça çörək qoy.

SİDDİQƏ: Nə çörək ay Camal?..

CAMAL: Yahu, arvad, sussana! Hazır olsun dedi.

QARI: Dediysə eləyin.

SİDDİQƏ: Bir çörək parçasına onu qonaq edəcəyik?

CAMAL: Ay arvad, dedim yox da!..Nəysə, bir azdan başa düşərsən.

Bəsdir o qədər!..

SİDDİQƏ: Zatən olanı budur.

CAMAL: Uzatma!..Bir az da kül.

SİDDİQƏ:  Nə külü?..

CAMAL:  Zəhrimarın külü, zıqqımın külü!  Sobanın külünü deyirəm, ay kütbeyin!..Tövbə!..Tövbə!..

(Siddiqə sobanın altından bir az kül götürüb süfrənin üstünə qoyur).

CAMAL: Külü təmiz bir yerə qoymaq lazımdır.

SİDDİQƏ:  Başqa bir yerəmi qoymalıyıq?..

CAMAL:  Bəli, gözdən uzaq bir yer olmalıdır.

SİDDİQƏ:  Tavan?

QARI:  Gəlinin otağına qoyun.

CAMAL:  O lənətlənmiş otağın adını çəkmə!..Bizimkinə qoy. Pərdəni də  çək. (Siddiqə süfrəni göstərilən yerə daşıyır. Pərdəni də çəkir).

CAMAL:  Ortalığı da yığışdırın. Sən ölməyəsən, sizi gərək, yerə yıxıb başa salasan!..

QARI:  Evimizi tanıyır?..

CAMAL:  Adresi demişik.

SİDDİQƏ:  Adreslə bu evi tapa bilərsə halal olsun ona!

CAMAL:  Necə lazımdırsa, onu başa salmışam. Həm də durub piyada gəlməyəcək ki?.. İri bir mersedesi var evinin qarşısında. Anamın yatağını da düzəldin!..Dağınıq görməsin ortalığı. Evini görsəydiniz, bir onun?.. Binamusam, əgər yalan deyirəmsə, ağlım başımdan çıxdı...

SİDDİQƏ:  Necəydi yəni?..

CAMAL:   Qocaman bir binanın mənzili. Hələ ortasında fəvvarə belə var. Pah atonnan!...

QARI:  Nə fəvvarə, Camal?..

CAMAL:  İki mənzili birləşdirmiş. Salonda hovuzu belə var. Həmin o

hovuzun fəvvarəsi göz oxşayır. Elə bir şey yoxdur ki, evində olmasın. (Sanki Mahirə daş atır). Allah deyir: səndən hərəkət, məndən bərəkət.

QARI: Xeyir-dua alır.

MAHİR: Pul da alır.

CAMAL: Halal olsun. Halalı xoş olsun! Namussuzam, rəfah içındə yaşayır bu hərif.

SİDDİQƏ: Tövbə de!..

CAMAL: Nədən ötrü?..

SİDDİQƏ: Hərif dedin.

CAMAL: Ağzımdan çıxdı. Yenə də tövbə!..

(Digərləri ortalığı yığışdırarkən pəncərədən bayıra baxmaqdadır). Bir az əldən zirək olun!

SİDDİQƏ: Olmaya gəlir?..

CAMAL: Baxsana, gəlir. Aslan yatdığı yerdən bəlli olurmuş. Süpürgəni islat deyə neçə dəfə söylədim sənə. (Siddiqə süpürgəni isladanda Reyhan yenə də huşunu itirir).

CAMAL: Bitəcək qızım, bitəcək. Bir az daha səbr et. (Siddiqəyə). Ayaqqabıları da çıxart dişarıya. İy basıb aləmi. Allah elə eləsin ki, hərif narazı qalmasın...Bayıra, bayıra. Pəncərəni də bir az açıq qoy. İçərisi havalansın.

SİDDİQƏ: On dənə əlim yoxdu ki!..

CAMAL: (özü açır). Tənbəllik basıb səni.

SİDDİQƏ: Ancaq əmr etməyi bilirsən.

QARI: Bir neçə rükət də namaz qılsaq...

SİDDİQƏ: Kişi indi gələcək.

CAMAL: Sən bu ağlınla min yaşa, ana!..Gətir qızım dolçanı...

MAHİR: (bayıra baxır). Adamın maşını Mersedesdi demişdin, ata?..

CAMAL: (maşın səsini duyub pəncərə qarşısına qaçır). Aha, vallahi, o!. Amanım!..Üst-başınızı da azacıq səliqəyə salın. Başınızı bağlayın. Müsəlmanın ağlı sonradan gəlir başına. Vaxsey, ayaqyolunu unutduq! Bir vedrə su doldur, qoy oraya oğlum. Cəld olun, cəld olun!...

(Hər kəs təlaşlanıb. Siddiqə xəkəndazı tapa bilmədiyindən tozu-mozu kilimin altına süpürür. Qarı belə xəfif dikəlir. Mahir də sanki onlara bir az acıyaraq bu vaqeəni maraqla seyr edir.

CAMAL: Sən də elə bil, ling udmusan. Heykəl kimi dayanma.

MAHİR: Boş yerə özünüzü yorursunuz.

CAMAL: Sənin atanın ağzını...

SİDDİQƏ: Eşidər, yavaş olun!..

MAHİR: Şeyx uçmaz, müridi uçurdarmış.

(Mahir gəlinin otağına keçir. Camal nəsə demək istəyir, Siddiqə onu susdurur. Qapı çalınır, Camal açır).

HƏZRƏT: (saqqallı, çox yaxşı geyinmiş, cin kimi bir adam). Əleyküm salam!..

(Camal əlini öpər. Siddiqə və Reyhan da əlini öpmək istəyirlər. Həzrət əlini qadınlara verməz. Gözləriylə salam verir.)

HƏZRƏT: Budur, Reyhan?..(Hamı bir-birinə baxır ki, görəsən kişi qızın Reyhan olduğunu haradan bildi).

CAMAL: (olduqca hörmətlə). Bəli... (hər kəs kimi utancaq) Bəli...

HƏZRƏT: Gəl baxım sənə qızım. Qorxma. Qorxacaq nə var ortada?..

CAMAL: Oturardınız.

HƏZRƏT: (sanki eşitmir). Süfrə haradadır?..

SİDDİQƏ: İçəridə.

CAMAL: (arvadına tərs-tərs baxır). Orada...Pərdəni açım?..

HƏZRƏT: Kimsə keçməyib ki, ora?..

CAMAL: Keçməyib.

HƏZRƏT: Aç, baxaq. (içəriyə girir. Süfrəyə əyilib diqqətlə gözdən keçirir). Cin-pəri işi deyil. İz yoxdu burada. (Hamı bir-birinə baxır ki, görəsən haradan bildi bunu).

HƏZRƏT: (Reyhana alıcı gözlə baxar). Maşallah, qızımız çox gözəl imiş!..Gözə gəlib bu, gözə!...Soba yanmır?..

CAMAL: (xərifləyir). Kömür qalmamışdı. Odunla...Deyəsən, üşüdüz?..

HƏZRƏT: Üşümədim. Od lazımdır. (Sobanın qapağını açıb baxır). Bu od kifayətdir. Atmayın. (cibindən nəzər otu olan üzərrik çıxarır. Reyhan huşunu itirir).

CAMAL: Bihuş oldu yenə...

HƏZRƏT: Qorxmaq lazım deyil. Keçib gedəcək. (Reyhana). Sən otur, qızım. (Həzrət sobanın qapağını açaraq küncüt böyüklüyündə olan üzərrikləri tək-tək atır içəriyə. Üzərriklər çıtır-çıtır səs çıxararaq yanarkən, əyilir, bir yandan tüstünü qoxulayır, o biri tərəfdən də avazla oxumağa başlayır).

Gəlsin üzərrik, getsin nəzərlik, üzərrik minbir ellik.

Çatır-çatır çatlaya, patır patır partlaya.

Reyhanı gözə gətirənin iki gözü partlaya.

(Digərləri hərəkətsiz izlərkən Veyl Tahir gəlir. Camal Tahirin öz otağına getməsini işarə eləyir. Tahir Mahirin yanına keçir).

HƏZRƏT: Gər gəviş, qadalar sovuş, altmış, yetmiş, çıxmış getmiş.

Həzər hüzərə, öküz gəlmiş bazara,

Reyhanı gözə gətirənin iki gözü bozara!..

Eş eşikdən, beş beşikdən, yastı dildən yaman

gözdən Allah saxlaya!...

Üzərrik, havasan, yetmiş iki dərdə davasan, gəlmiş gələcək

Qəzanı-bəlanı sovasan!..

Üzərrik, başında yaşıl tərlik, Reyhanı gözə gətirənin evinə

girməsin dirlik!...

(Həzrət mırtdana-mırtdana dua oxumağa başlayır. Siddiqə və Qarı da əllərini qaldırırlar, amma Camal onları xəbərdar edincə əllərini yenə aşağı salıb, barmaqlarını iç-içə keçirib dayanırlar. Tahirlə Mahir də gülməkdən özlərini zorla saxlayaraq bu tamaşanı izləməkdədrlər...)

HƏZRƏT: Amiiin. Amiiin. (digərlərinə). Hamı birlikdə eyni imanla... Amiiin.

BİRLİKDƏ: Amiiin...Amiiin....Amiiin...

HƏZRƏT: (cibindən kiçik bir göz muncuğu çıxarır). Gəl bura, qızım. Qorxma, qorxma. (kürəyinə sancır. Yenidən dua oxuyur). Amiiin...

BİRLİKDƏ: (sidqi-ürəkdən). Amiiin...Amiiin...

HƏZRƏT. Tamam. Mənim işim bitdi. Bundan sonrası Allaha qaldı. Keçmiş olsun, qızım. Allah şəfa versin.

CAMAL: (qızara-bozara). Borcumuz nə qədər?..

HƏZRƏT: Haqqı Ustanın tanışlarısınız. Münasib bir şey verin də...

CAMAL: (daha əvvəlcədən hazırlamış olduğu zərfi cibindən çıxarıb

uzadır). Sizə layiq deyil, amma...

HƏZRƏT: (Pulları gözucuyla sayır). Maşınla gəldim. Benzin çox aparır. Amma yenə də Haqqı Ustanın xatiri üçün...nəysə...Haydı, salamat qalın. Xudahafiz.

BİRLİKDƏ: Gülə-gülə.

HƏZRƏT: Çalışın ki, o göz muncuğu düşüb itməsin.

BİRLİKDƏ: Çalışarıq!..

HƏZRƏT: Yoxsa çəkdiyim zəhmət, heçə enər!..

CAMAL: Yatanda da çıxarmayaq?..

HƏZRƏT: Yatanda da!..Düşüb itərsə, daha mənlik deyil. Dua pozular ha!..(Hamısı birlikdə Həzrət deyilən məxluqu qapıya qədər ötürürlər. Qarı dua edir. Veyl Tahir və Mahir yanlarına gəlir.)

QARI. Rəbbimin göydən endirdiyi mələkdi sanki...

SİDDİQƏ: Desəydilər inanmazdım. Nə gözəl kişi idi.

CAMAL: (arvadına tərs-tərs baxaraq). Pah...Bilsəydim elə əvvəldən gətirərdim onu, hüsn-camalına tamaşa edərdin..Sən nə gülürsən ədə?..

MAHİR: Gülmürəm ki, ata...

TAHİR: Dörd dənə arvadı var, bu hərifin!..

SİDDİQƏ: Günaha batarsan, oğlum, ələ salma onu! Tüh!..Bu oğlanlar üçün də dua yazdırsaydıq?..

CAMAL: Dua, göz muncuğu kar eləməz bunlara!..Etiqad məsələsidir bu.. Etiqadları varmı ki, dua, göz muncuğu bunlara təsir eləsin?.. Səhərdən gözüm bunlardadır. Kişi dua oxuyur, bunlar da ona baxıb hırıldayırlar...Yıxasan yerə, malcan kötəkləyəsən!..

QARI: Qəflətən keçdi, vallahi.

TAHİR: Dərhal qərar vermə, nənə.

QARI: İndiyənə qədər yaşamağımın səbəbi bilirsən nədir? Özümü doxturlara heç vaxt əmanət eləməmişəm, bala.

SİDDİQƏ: Vallahi, mənim də içim elə bil təzələndi. Necə də oxuyurdu? Quş kimi yüngülləşdim.

TAHİR: (Mahirə yavaşdan). Qida ala bilmədiyimizə görə!..Yaxında ruh kimi yüngülləşəcəyik bu gedişlə...

QARI: Bir də on il oxudub kafirlik öyrədirlər millətə...

CAMAL: (oxumağa qarşı deyil). Yooox!..O iş başqa, bu iş başqa...Göz dəyməyə doxdur neyləyə bilər ki?..

SİDDİQƏ: Ürəkdən oxuyurdu hərif...

CAMAL: Bax, indi də sən hərif dedin...

SİDDİQƏ: Bay!..Tövbə!..Tövbə!..Allah, keç mənim günahımdan.

MAHİR: (Tahirə yavaşdan). Evdə kömür qalmayıb..Əlindəkini də bu cadugərə verdi...

CAMAL: Bəsdirin, danqıldamayın orada, tez olun, ortalığı yığışdırın.

***

(Reyhanı otaqdakı yataqda yatırmışlar. Dərin yuxuya gedib. Camalla Siddiqə yanındadır. Siddiqə yorğanla Reyhanın üstünü yaxşıca örtür. Dəhlizə gəlirlər. Otağın qapısınə açıq qoyurlar

CAMAL: Soba sönməsin.

SİDDİQƏ: Odun heç qalmadı.

CAMAL: Reyhan üşüyəcək. Əbəs yerə deməmişlər: “Mart ayı dərd ayı”. Gəlin pulu gətirincəyə qədər yandırmağa bir şeylər tapmalıyıq.

(Camal gözləri ilə ətrafa baxarkən, Qarı qorxuya düşüb əsasını gizlətməyə çalışır).

TAHİR: Bizim bir portaxal sandığımız vardı.

SİDDİQƏ: Onu yandırmışıq. (Camala yavaşca). Anandan bir az pul istəsənə. Necə olsa bir azdan pul gələcək. Bir şələ odun alardıq Camal.

CAMAL: Nəysə... Bir az da səbr edək. Indi harada olsa gələr pul.

SİDDİQƏ: Gəlin gecikir. Ağlım kəsmir ki, bacarsın.

CAMAL: Necə yəni bacarmayacaq?..Elə şey olar?..Bu gün nəyin bahasına olursa olsun, pulu alıb gətirməlidir.

SİDDİQƏ: Əslində pul üçün gəlin gərək getməyə idi. Atası özü pulu gətirməli idi. Yenə deyirəm, gəlin pulu ala bilməyəcək. Kaş ki, özün gedəydin.

CAMAL: Mən nə üzlə ondan istəyim?..Qızının istəməsi bir başqadır. Onun istəməsi daha asan başa gəlir.

SİDDİQƏ: Birdən ödəyəmmədi borcunu?..

CAMAL: Elə şey olar? Bilmir ki, biz də kirayə ödəməlıyık? Odun, kömür alacağımızı bilmir?.

(Qapının zəngi. Siddiqə açır. Gəlin sallaq sifətlə daxil olur).

TAHİR: Nə oldu?..

CAMAL: Gətirdin pulu?..

SİDDİQƏ: Yoxsa, atan vermədi?..

QARI: Allah göstərməsin!

GƏLİN: Yoxdur...

TAHİR: Tapmaca danışma aaz?.. Atan evdə deyildi?..Olmaya pulu

yoxdur verməyə?..

GELİN:  Pulu yoxdu..

TAHİR:  Necə yəni yoxdu?..

CAMAL:  Bəs bu gün söz vermişdi ki, ödəsin.

SİDDİQƏ:  Axı şərt kəsdik onunla qızım...

TAHİR:  Yoxsa, deməmisən?..

GƏLİN:  Demişəm...Vallah demişəm...Billah demişəm...

CAMAL:  Nə dedi?..

QARI:   Gərək ödəyəydi. Halımızı ki, bilir...

CAMAL:  Söz danışıqdan keçər. Maaşımı verdim ona, ay qardaş. Özü də bilir ki, sabah  biz də kirayə haqqını ödəməliyik. Belə də iş olar?.. Bəs biz ikinci dəfə kirayə pulunu gecikdirsək nə olacaq?..Söyləmədin bunları ona?..Səninləyəm!..

GƏLİN:  Söylədim, amma...

TAHİR:  Aaaz, keç içəriyə!..(Gəlin Tahirin arxasından otağa keçir). Olmaya söyləməmisən?..

GELİN:  Söylədim də deyirəm...

TAHİR:  Bə nə oldu?..

GƏLİN: Dedim də...

TAHİR:  Təzədən de. Yavaı-yavaş de. Noldu?..

GƏLİN:  Pulu yoxmuş...

TAHİR:  Madam ki, ödəyə bilməyəcəkdi, bəs niyə aldı?..

GƏLİN:  Əlində pulu olsaydı ödəməzdi?..

TAHİR: (yumruqlayır). It qızı, it!...

GƏLİN: (ağlayaraq). Anam xəstələnib...

TAHİR: Bəsdir, yalan danışdın!..

GƏLİN: İki gözüm çıxsın ki, düz deyirəm. Xəstəlik gəlirəm deyərmi? Dünəndən bəri getmədik doktor, almadıq dərman qalmadı...

TAHİR: Bumların yanında üzümü qara etdin.

GELİN: Tahir, anamın vəziyyəti ağırdır...vallah doğru sözümdür..

TAHİR: (gedir o birilərinin yanına). Anası xəstələnib...

CAMAL: Eşitdik.

QARI: Yəqin pulu vermək istəmir, ona görə deyir ki, anası xəstədir?

TAHİR: Xəstədir, nənə. Həm də ağır... Əslində son vaxtlar heç də yaxşı deyildi. Allah eləsin ki, heç nə olmasın. Qadın ölüb-eləyərsə qayınata təkbaşına neyləyər?..Başqa bir kimsəsi də yox...

CAMAL: Lap cavan qadındı...

SİDDİQƏ: Allah köməyi olsun...

QARI: Ölüm qaş ilə göz arasında...

CAMAL: Nə edəcək indi adamcığaz?..

QARI: Sən deyən ölməli qadına da oxşamır...

TAHİR: Hələ ölməyib, nənə?..

QARI: Elə danışırsınız ki, elə bil ki, ölübdür...

SİDDİQƏ: Həqiqətən, son günlərdə rəngi-rufu sapsarıydı. (gəlinin otağının qapısından). Keçmiş olsun, qızım.

CAMAL: Keçmiş olsun.

QARI: Başın sağ olsun, qızım.

TAHİR: Nənə, dedim sənə axı, ölməyib.

QARI: Öləcəkmıdır-nədir, nəsə ağzımdan elə çıxdı...

CAMAL: (yavaşca). İşimiz bitdi...Getdi bizim pulumuz...Çətin ki, bundan sonra pulu ala bilək?..

SİDDİQƏ: Günah səndə. Verməməliydin. Ode, odun da qurtardı...

CAMAL: Haradan biləydim belə olacağını?..

QARI: İt də getdi, ip də...

SİDDİQƏ: Bəs sabah nə edəcəyik? Bir yerdən tapsana. Yoxsa, ikinci dəfə gecikdirsək bizi bayıra atacaqlar. Zatən ev sahibi bizi bayıra atmaq istəyir.

CAMAL: Sabah tezdən gərək yola çıxam. Bir də ki, haradan tapacam, kimdən istəyəcəyəm? Zatən konduktor İsmayıldan aldığım pulu heç düz-əməlli qaytara bilmədim ki?..

SİDDİQƏ: (yavaşca) Anandan istə.

CAMAL: Olmayacaq duaya amin deməyək.. Verməz. Zorla da çəkib əlindən almayacağıq ki?..

SİDDİQƏ: Ağır vəziyyətə düşdüyümüzü bilir. Bəlkə də verdi?..Həm də istəməklə nə itirirsən? İstəyənin bir üzü, verməyənin iki üzü. (əli ilə vedrədəki odunları göstərir). Daha qalmadı...(Qarı deyəsən, vəziyyətdən duyuq düşüb, narahat olmağa başlayıb).

CAMAL: Anaaaam...Canım anaaaam....

QARI: Məni ayaqyoluna bir götürsənə...

CAMAL: Hələ bir dayan, görək. Bir az tab gətir...(süni və borc istəyən bacarıqsız adam kimi). Bax, ana...Bilirsən də...Kirayə pulunu ödəmək

məcburiyyətindəyik. Yoxsa bu Həmid deyilən məxluq bizi bayıra atacaq. Görürsən də Reyhan da xəstələnib...Yuxarıda Allah var...

SİDDİQƏ: Hə.

CAMAL: Nə demişlər, yaxşılıq elə, dənizə at...

QARI: (heç vecinə almadan). Haqlısan mənim balam. Yerdən göyə qədər haqlısan.

CAMAL: Ötür gəlsin, ay ana. Bizə bir az pul ver ki, kirayəmizi ödəyək, odunumuz, kömürümüz də qalmadı, özün görürsən...

QARI: (Birdən özünü toplayır, sanki gedəcəkmiş kimi davranışlar göstərir). Mən sənə haradan pul tapım, ay bala?..

CAMAL: Nə olar, anam?..Səndən borc istəyirik. Necə olsa, sənə qaytaracağıq?..

SİDDİQƏ: Pulun olduğun bilirik . (Bu arada Tahir nəsə düşünür. Sanki öz-özünə bir şeylər quraşdırmaqdadır).

QARI: O mənim ölü param. Kəfən pulum. Məzardan rəhmətlik atan çıxsa, genə vermərən. Ölüm, ortalıqda qalım?..

CAMAL: Pulu qaytaracağıq sənə!..Məqsəd odur ki, sabah başımızı aşağı salmayaq!..

QARI: Bu evdə kim-kimə nə qaytardı ki?..Amanıııim. Bir ildir sizə verdiyim beş min liranı qaytara bildinizmi?..Amanıııim!...

CAMAL: Allahı sevirsən, etmə ay ana!..

SİDDİQƏ: Ondan gələcək xeyir, Allahdan gəlsin!..

QARI: Mənim param-pulum yox. Amanıııim!..

CAMAL: Pulun var sənin!..

QARI: İndi də, sinə daşıma göz dikdilər!..

CAMAL: (minnətlə). Gör, neçə ildir ki, baxırıq sənə. Heç olmasa, sən də bir yaxşılıq elə bizə. Tüüüüüü....

QARI: Birdən öldüm?..Amanıııım....

CAMAL: Bizə heç yazığın gəlmirmi?..Heç mərhəmət hissi yoxmu səndə?..Odun alacaq pulum belə yox cibimdə. Pulunu verəcəyik deyirik, başa düşmürsənmi?..

QARI: Bu mövzuda heç israr etmə. Canımı istə verim, amma ölü puluma əl dəymə!..(işi böyüdür). Eşit, Mahmud, eşit!..Sənin Camalın... Yeganə oğlun, anasının ölüsünü...Qurda-quşa yem edəcək!..(Qarı həşir salıb ağlayır).

TAHİR: Nənəmin yaxasından əl çəkin! Ağlatmayın yaşlı qadını canım?

CAMAL: Elə isə get sən tap. Pulu haradan tapacağıq?..

TAHİR: (Camala "sənlik deyil, mən həll edərəm" işarəsini edir). Sən bu işə görə qanını qaraltma, ata!..Gün doğmadan nələr doğar. Bir də gördün, Allah daha çox nəsib elədi?..Bilmək olmaz bu işləri...

SİDDİQƏ: (Əlinə bundan daha yaxşı fürsət düşməyəcəyini hiss edir). Səni xəstəxanaya çatdırmaq lazım olsa, taksi pulunu belə ödəyə bilməz!

CAMAL: Sus aaaz!..Qışda-qiyamətdə atdıracaqsan bu qadını bayıra?..

SİDDİQƏ: O biri qardaşlarının da anasıdır. Ögey-zad deyilsiniz ki?.. Bir az da onlar baxsınlar. Məcbursan elə təkcə sən ona baxasan?..

TAHİR: (bu dəfə anasına yaxınlaşır). Tamam, ana...Uzatma daha!.. (susmasını işarə edir). Mən alacağam. Bu işi mənə buraxın. (bağırır). Vallahi, nənəm haqlıdır da!..

QARI: Hay dilinə qurban olum, Tahirim! De gəlsin, de gəlsin, mənim balam.

TAHİR: Niyə də deməyim, nənə. Bu işdə sən haqlısan. Bunlar onsuz da sənin borcunu ödəyə bilməyəcəklər. Niyə onlara pul verəcəksən?..

Elə deyil?..Əgər geri qaytarsaydılar, o başqa məsələ. Elə deyilmi?.. (anasına yavaşca). Bizim rəfin altında bir lotoreya bileti olmalıdır.

SİDDİQƏ: O biletə bir şey çıxmadı ki. Vaxtı da keçıbdir.

TAHİR: Fərqi yoxdur. Tap, gətir, onu mənə. Duyuq düşməsin.

(Siddiqə rəfin üzərindən bileti gətirərkən, Qarı dua etməkdədir. Tahir bileti alıb cibinə qoyur).

QARI: Sənin burnun qanamaz Tahirim. Hər gün dua edirəm sənə.

TAHİR: Sağ ol, nənə. Elə ona görə də işimiz yaxşı gedir də. Maşallah, padşahlar kimi yaşayırıq. Ata, doğrudan da sabaha gərək haradan olsa da pul tapaq. Nənədən almayacağıq. O olmaz, çünki, sinə daşı üçün nənəm indidən tədarük görüb. Haqlıdır!..Amma pulu haradan tapacağıq?.. Məsələ budur...

QARI: Bir şeylər satın. Artıq yorğan-döşəkdən-zaddan...Bəlkə bidonları satasınız.?..

TAHİR: Onun məzənnəsi bir şey etməz ki, nənə?..Dəyməz o pula. Bir şey tutmaz. Dayanın a balam, axı mənim deyəsən, bir dənə lotoreya biletim olmalı idi. (cibindən çıxarır). Dünən, çəkiliş olub. Bu günki qəzet olsaydı baxardıq.

CAMAL: Bizdə o bəxt hanı?..

TAHİR: Bilmək olmaz. Bir də gördün, bəxtimizə nəsə çıxdı?..

SİDDİQƏ: (durumu anlamağa başlayıb). Şər deməsən, xeyir gəlməz. Elə bil, gözümə işıq gəldi.

TAHİR: Ana, mənə bir qəzet tapsana.

SİDDİQƏ: Haradan tapım, qadası?..

TAHİR: Təhsingilə dəy. Bu günki qəzet var onlarda. (göz vurur). Amma bu günki olmalıdır. (yavaşca). Əlinə keçən bir dənə qəzet gətir...

Haydı, durma. (Siddiqə çıxır). Ata, istəyirsən ki, bizə uduş çıxsın?..

CAMAL: Kefdən dəm vurursan.

QARI: Hanı bizdə o bəxt ay oğlum?..

TAHİR: Bilmək olmaz, nənəcan? Udanların dörd əlləri, altı gözlərimi var?..Onlar da bizim kimi insanlar. (Siddiqə əlində qəzet gəlir). Ver bəri ana. Baxaq, görək, nə var?..Həəə, bax, siyahı burada!..Son nömrələrə baxaq. Son rəqəmi üç və yeddi olanlar. Yoxdur!..Bizimki iki. Dur, baxaq indi. Son iki rəqəmi qırx üç və əlli səkkiz olanlar...

QARI: İnşallah çıxar!...İnşallah çıxar!..

SİDDİQƏ: İnşallah!..

TAHİR: Yox!..Beş yüz min lirə qazananlar. Deyil!..İki yüz doxsan səkkiz min üç yüz doxsan altı. Bu da deyil!..Yox!..Nə?..Nə?..

SİDDİQƏ: Nə oldu mənim balam?..

TAHİR: Gözlərimə inanmıram?..

SİDDİQƏ: Baxaq!..

TAHİR: Dur, bir də baxaq!..Buraya bax,ata!..

CAMAL: (guya baxır). Vallahi, günaha batırıq...

TAHİR: Çıxdı, çıxdı!..

SİDDİQƏ: Doğru!..Çıxdı!..

TAHİR: Vallahi doğru!..

CAMAL: And içmə!..

QARI: Çıxdımı?..

TAHİR: Çıxdı!..

QARI. Nə qədər yavrum?..

TAHİR:  Tam tamına bir milyon lirə!..Çıxdı!..Çıxdı!..(Gəlin qaçaraq gəlir). Bax!..Çıxdı!..Çıxdı!..

QARI:  Duam baş tutdu. Pulum qurtuldu.  Gecə yata bilməyəcəkdim.

SİDDİQƏ:  Vermə! Vermə! Bax, Allah yardım etdi!..

CAMAL:  Hə, bax, belə...(kənara). Tövbə ya rəbbim, sən bizim günahımızdan keç!..

SİDDİQƏ: Nə qədər alacağıq?..Hamısını?..

TAHİR:  Bu şey...Yarım bilet olduğuna  görə...Yəni, tam tamına beş yüz min lirə alacağıq. Tüh...buna bax ey!..

QARI:  Aman oğlum, az pulmu?..

SİDDİQƏ:  Nəysə, yenə  bərəkətli olsun.

TAHİR:  Doğru.

SİDDİQƏ:  Nə yaxşı ki, bu bileti almısan, Tahirim.

QARI:  Camal haraya sovuşdu?..

SİDDİQƏ:  Camaaal!..

QARI:   Bu hamısı Reyhanın şansıdır!..

TAHİR:  Bileti Reyhan almadı ki?..Bu mənim şansım!..

QARI:  Allah darda qalana hər zaman yardım edərmiş. Vallahi, bu hamımızın şansı.

CAMAL: Hə...Bu pul bizi dardan çıxarar...

TAHİR:  Axx...Kaş bir az da artıq çıxa idi ki, özümə bir dənə maşın da ala biləydim. Heyif!..Onda yeyərdik qaz ətini, görərdik ləzzətini?..

CAMAL:  Doğrudan ha...

SİDDİQƏ:  Bundan faiz-zad çıxmazlar?..

TAHİR: Nə faiz ay ana?..Sən nə danışırsan?..

CAMAL: Yox, çıxmazlar!

TAHİR: Son quruşuna qədər ödəyəcəklər! Pulun hamısını!..

QARI: Pulu nə vaxt alırıq?..

TAHİR: (saata baxır). Vaxta varsa, bu gün ala bilərik...

QARI: Vaxta hələ var..

TAHİR: İş saatının bitməsinə iyirmi dəqiqə qalıb, nənə.

QARI: Taksiyə min get. Çatarsan.

SİDDİQƏ: Lazim deyil. Sabah səhər alarsan. Bileti mən aparsam, mənə verərlərmi pulu?..

TAHİR: Niyə vernirlər?..Bileti kim aparsa o da alır pulu.

CAMAL: Toto-zad deyil ki, verməsinlər!..(deyəsən o da yoluxub). Adı yazılmayıb ki, üzərində!..

TAHİR: Nənəm getsə belə pulu ona verəcəklər!..

QARI: Mən necə gedim, qadan ürəyimə? Taksiylə götürsəz olar.

TAHİR: Sözgəlişi dedim, canım. Diləyin məndən, nə diləyirsiniz?..

SİDDİQƏ: (içəridən mantosunu gətirir). Pulu götürən kimi mənə bir manto al. Neçə ildir bunu geyinirəm.. Ta evləndiyimizdən bu yana bu kürəyimdən düşməyib.

TAHİR: Alaram, ana alaram. Atama da ayaqqabı alaram.

QARI: Özünə də al, oğlum, Ayaqların su çəkir, içim parçalanır.

CAMAL: O İsmayıldan aldığımız borcu da dərhal qaytararıq.

SİDDİQƏ: Bir ay sonra demədinmi? Tələsmək nəyə lazım?..

TAHİR: Yox atam haqlıdır. Aldığın borcu dərhal ödəyəcəksən ki, bir daha istəməyə üzün olsun. Düz deyirəm, nənə?..

QARI: Mən nə bilim...

SİDDİQƏ: Gəlinə də bir tikiş maşını alarıq. Neçə il biçmə-tikiş işinə gedib. Bir şeylər tikib heç olmasa, büdcəmizə dayaq olar.

QARI: Məni də yaddan çıxarma, mənim balaaam, Tahiriiim,

TAHİR: Nə istəyirsən, nənə söylə?..

QARI: Bir dənə arxalıq. Eləsi olsun ki, geyinəndə soyuq olmasın. Hələ qışın çıxmasına bir xeyli var.

TAHİR: Alaram, nənəm mənim.

CAMAL: Necə almarıq?..

TAHİR: Sən bizim bir dənə nənəmizsən. Bir dənə arxalığla iş bitməz. Sən başqa bir şey yenə də istə.

QARI: Bir də rezin məst istəyirəm, evdə eşikdə geyməyə...Zatən baha olmaz?..

SİDDİQƏ: Həm də ucuz sayılmaz!..

CAMAL: Ucuz nə var ki?..

TAHİR: Nənəmin ayaqları çox üşüyür. Alarıq, niyə almırıq.!..

QARI: Sağ ol, mənim balam.

TAHİR: Sənə almayıb da kimə alacağıq yəni?..

QARI: (çəkinərək). Elə almışkən, bir dənə də yun parçadan xalat desəm çox olmaz ki?..

TAHİR: Sənə qurbandır, nənəm mənim. Elə duaların sayəsində bu haldayıq.

SİDDİQƏ: Xalat baha olar, ay Tahir!..

TAHİR: Əşi, nə tutacaq? On beş min lirə ilə hamısını xətm edərik.

SİDDİQƏ: Bu yaxşılığımızı yaddan çıxarma.

QARI: Yadımdan çıxmaz.

CAMAL: Amma biz dara düşəndə sən köməyimizə gəlmirsən?..

TAHİR: Görürsən ki, ən çox səni düşünürük.

QARI: Allah hamınıza uzun ömür versin, balalarım. Hamınızdan xoşnudam.

TAHİR: İndi keçək əsas mətləbə. Ata, sən nə zaman çıxacaqsan səfərə?

CAMAL: Sabah səhər yeddinin yarısında.

TAHİR: O zaman səndən bizə bir fayda yoxdur. Nə edəcəyimizə qərar verək. Sabah mən gedirəm pulu almağa. Elə fikirləşirəm ki, günortaya qədər sürər işim. Mən gedəndə siz də alış-verişə çıxarsınız.

QARI: Pulu almadan necə alış-verişə gedə bilərlər.

SİDDİQƏ: Alış-verişdən əvvəl kirayə pulunu ödəməmiz lazımdır. Banka hesab nömrəsinə ödəməliyik ki, protestodan qurtulaq.

TAHİR: Hə, doğru deyirsən, az qala onu unutmuşdum...

SİDDİQƏ: Ən vacibi odur, mənim balam.

TAHİR: Nənəmə alacağımız şeylər də vacibdir, ana. Hə, baxın ha... Hamınıza söyləyirəm. Bir kimsəyə lotoreyadan pul udduğumuzu deməyin. Hamısı gəlib pul istəyəcək. Oldumu?..

QARI: Düz deyir. Qoy pulsuz bilsinlər bizi...

SİDDİQƏ: Sabah kirayə və alış-veriş üçün pul lazım olacaq. Əlimizdə olan çatmaz ki?..

TAHİR: Bu da sözdür, danışırsan, ana?..Nənəmizdən alarıq. Rahat – rahat alış-verişinizi də edərsiniz, hələ kirayəni də ödəyərsiniz. Mən də...

Mən də pulu alan kimi dərhal evə gəlib nənəmin pulunu verərəm.

QARI: Alış-veriş tələsik deyil. Lotoreya pulunu alandan sonra gedib aliş-verişlə məşğul olarsınız.

TAHİR: Elə demə, nənə. Vaxtları çoxdu deyə qoy alış-veriş etsinlər. Gəzə-gəzə alsınlar. Qırx ildə bir bazara çıxırlar. Qoy doyunca, istədikləri qədər gəzib kefləri nə istəyir alsınlar.

SİDDİQƏ: Düz deyir.

TAHİR: Həm də indi odun, kömür də almaq lazımdır.

CAMAL: Anamın pulu nə qədərdi ki?..

SİDDİQƏ: Bütünlükdə yüz yetmiş iki min iki yüz əlli lirə pulu var.

QARI: Hamısını alacaqsınız məndən?..

TAHİR: Hamısını alaq. Hesabı da qarışdırmayaq.

QARI: Mən qarışdırmaram. Hamısını almanıza lüzum yoxdur.

TAHİR: Aman, nənə. Necə olsa, yenə qarşılığı var. Qoy bol-bol xərcləsinlər. Sənin pulun buna bəs edər. Sənə arxalıq da alacaqlar.

CAMAL: Xalat da alacağıq.

SİDDİQƏ: Rezin məst belə alacağıq. Sabah günortaya qədər bu qədər faizi kim verər sənə?..

QARI: Mən faiz yemərəm. Onlar hədiyyə olsun.

TAHİR: Söz verirəm, bir də çitdən tuman alacağam sənə. Hə...bir də oturaq düzəldək ki, ayaqyoluna girmək dərdindən qurtulsun.

(Qarı susqunluq içində pulunu saymaqdadır. Sayma işi bitdikcə, paltarının müxtəlif yerlərindən bir dəstə daha çıxarıb saymağı davam edir. Digərləri onun eşitməyəcəyi şəkildə danışırlar).

CAMAL: Allahdan savadı yoxdur. Yoxsa, bu qəzet nömrəsi ilə onun

başını aldada bilərdik?

SİDDİQƏ:  Amma pul saymaqda da maşallah, zirəkdir ha!..İki gündən bir hər dəqiqəbaşı sayar pulunu, heç tənbəllik eləməz.

TAHİR:  O iş məcburidir. Vay Allahsız, dünyanın parası var qoynunda! (Qarıya). Nə qədər oldu?..

QARI:  Dediyin qədər.

TAHİR:  Dəmir pullar harada?..

SİDDİQƏ:  Onları da saysana.

QARI:  Dəyməz. Qəpik-quruşdur.

TAHİR:  Yenə də say nənə. Beləcə bütünləmiş olursan.

CAMAL:  (acıyır). Bari o heç olmasa, qalsın.

TAHİR:  Hələ dayan, saysın baxaq!..Yekun tutar nə qədərdir?..

(Qarı müxtəlif yerlərindən dəmir pulları da çıxarır. Bir-birinin üstünə yığır. Əvvəl böyükləri sonra kiçikləri bir-birindən ayırır).

QARI:  Bu neçə lirədir?..

TAHİR:  Əlli lirə. Neçə dənədir?

QARI.  On iki dənə. Nə edər?..

TAHİR:  Alti yüz lirə!..

QARI:  Bunlar iyirmi beşlik deyilmi?..

TAHİR: Bəli. Neçə dənədir?..

QARI:  Qırx dənədən bir əksik. Qırx deyilmi?..

TAHİR:  Min lirə edər. Hamısı min alti yüz oldu.

QARI:  Bunlar da on iki quruşluqlar.

TAHİR: Onlar qalsın. Hərçəndi bunlar da çoxdur. Mənə bax, olmaya, bizdən xəbərsiz dilənçiliklə məşğul olursan?..

QARI: Baqqaldan qalan artıq-urtuqdur, oğlum.

TAHİR: Zarafat eləyirəm, əşi!..Bəsdir, onlar qalsın.

SİDDİQƏ: Onları da alaq.

CAMAL: Lazım olar, alaq.

QARI: Sayım?..

TAHİR: Boş ver, sayma! Min lirə verək, yuvarlaq hesab olsun.

QARI: Daha çoxdu qadası. Haqqım keçməsin sizə.

TAHİR: Min beş yüz verək eləysə.

QARI: Buna iki min deyək də işi bağlayaq.

TAHİR: Yaxşı sən deyən olsun. Amma hərifləyirsən bizi.

QARI: Nə hərifləmək, balam?..(pulları toplayır guya verəcək). Min altı yüz, o da iki min, edər üç min altı yüz. O birini zatən bilirsiniz. Günorta istəyəcəyəm sizdən.

TAHİR: Oldu, nənəcan...

QARI: Bax, Camal!..Bir şey daha deyəcəyəm sənə. Mənim dərdim nədir. İndiyəcən bunu qurub düşünürəm. Ölsəm mərmərdən bir məzar daşı düzəltdirəcəksən mənim üçün?..

SİDDİQƏ: Hə...Bu, deyəsən, ağ elədi...

CAMAL: İstədikcə istəyir!..

SİDDİQƏ: İnsanoğlu yüz yaşına çatdımı?..Hər şey mənim olsun deyər.

QARI: (təhdid edir). Düzəltdirməzsən vermərəm!..

SİDDİQƏ: (yavaşca). Hə, de!..

CAMAL:  Nə etməli?..Bu söz, başqa şeyə bənzəməz.

TAHİR:   Söz verir nənə!..(ələ salır). Bir parça mərmər daşını məzarına qoymasam, mənə də İpsiz deməsinlər. (pulu çəkib alır əlindən). Söz verdik, vəssalam. (Anasına verir, yenidən sayırlar).

QARI:  İstəsəniz heç düzəltməyin. Sabah günlərin birində məhşərdə yaxalarınızdan tutmarammı?..Mərmərin üzərində də “Burada Əhməd Əfəndinin qızı, Mahmud Əfəndinin kəriməsi” yazılsın.(gözlərindən iki damla yaş axır). Əl fatihə.

(Siddiqə pulu çantasına qoyur. Xırda pulları da öz yatdıqları yerə aparır).

CAMAL:  Afərin İpsiz. Artıq qorxmadan sabahı da başa vurarıq.

SİDDİQƏ:  Mənim oğlumdakı ağıl kimdə var?..

CAMAL:  Haydı, acından qarnım quruldayır. Bir şeylər hazırlayın, yeyək.

SİDDİQƏ:  Gəlin, yardım et. (Gəlin istəksizcə gəlir. Birlikdə ocağın başına keçirlər.)

QARI:  (ortalıqda atılıb qalmış bileti görür). Oğlum, biletə bir şey olmasın.

CAMAL:  Bir şey olmaz.

QARI:  Az deyil beş yüz min lira, atmısınız ortalığa. Aman qaldırın oralardan. İstəyirsiniz verin mən saxlayım.

TAHİR:  (alır). Anamda qalsa daha yaxşı. Ana!..Al bunu gizlət.

SİDDİQƏ:  (harada isə unutmuşdur).  Nəyi gizlədim?..

TAHİR:  Canım, bileti.

SİDDİQƏ:  Hə, ver buraya!..Bu qəzeti də qaldıraq yerdən.

(Bileti qəzetin arasına dürtüb necə gəldi rəfə qoyur).

QARI: Su dəyməsin, mənim balam?..

SİDDİQƏ: Bir şey olmaz. (işi ilə məşğul olur).

QARI: Ay bala!..(gözünü biletdən çəkmir). Ay balaaam!..

CAMAL: Pulu necə geri verəcəyik?..

TAHİR: Pulu verməyi həqiqətən düşünürsən?..

CAMAL: Sabah qiyamət qopacaq evdə. Dur, anandan soruşaq!.. Bir çözüm tapmalıyıq. Yoxsa ortalıq darmadağın olur. Siddiqə!.. Sabah mən bu işin altından necə çıxacağam?..

SİDDİQƏ: Hansı işin?..

CAMAL: Səssiz ol!..Eşidər!..Bu borc işini, bilet işini! Arvadın borcunu qaytarmalıyıq...Yoxsa dərimizə saman təpər!..

SİDDİQƏ: Vallah, ağlıma bir şey gəlmir.

TAHİR: Dayanın! Mən sənə səsləinincə qəzetlə birlikdə bileti götür, sobaya at. Elə bu gün həll edəyin bu işi. Yoxsa sabah vəziyyət daha da ağır olacaq.

SİDDİQƏ: Necə?..

TAHİR: Gözlə!..(sobanı açır, baxır). Sobanın sönməsinə az qalıb. Bir az qəzetdən-zaddan gətir, ana.

(Odun atır. Siddiqə içində bilet olan qəzeti gətirir. Tahir alır və sobaya atır. Qarının sanki nitqi tutulur. Danışa bilmir. Əlləriylə biletin də sobaya atıldığını başa salmağa çalışır. Bacarmır. Az qala qalxıb hərəkət edə biləcək kimi hərəkətlər edir. Sürünərək sobaya doğru irəliləməyə çalışır.).

CAMAL: Nə edirsən, ana? Nə var?..Nə olub, yahu?..

QARI:  Sobanı !..Söndür!..Bilet!..

CAMAL:  (yalandan). Nə olub buna, ay bala?..

SİDDİQƏ:  Nə bilim, mən?..

TAHİR:  Nənə, nə olub sənə?..

QARI:   Bilet!...Bilet!..Soba!...Qəzet!..

SİDDİQƏ:  Şaxsey!..Bileti sobaya attıq.

TAHİR:  Ay ana, gör bir sən neylədin!..Ola bilməz!..

SİDDİQƏ:  Yandı getdi!..

TAHİR:  (guya bileti çıxamaq istəyir kimi hərəkətlər edir). Əlim də yandı!..Beş yüz min lirə də yandı!..(üzüldüyünü oynayır). Qismətdən artıq yemək olmaz! Bir də ki, haydan gələn huya gedər!..

SİDDİQƏ:  Nə edəcəyik indi?..

CAMAL:  Tfu!..Tfu!..Məhv olduq!..

TAHİR:  Evi teatra çevirdik, vallahi!..

(Hamı birlikdə gülməyə başlayırlar. Qarı əvvəl bir şey anlamır. Sonra vəziyyəti dərk edir).

SİDDİQƏ:  (qisas alırmış kimi). Belə bir vəziyyətdə sənin pulunu heç cürə  qaytara bilməyəcəyik. Amma söz veririk ki, qarşıda uyğun bir zamanda əlimizə pul keçən kimi ödəyəcəyik.

QARI:  O biletə uduş olmayıb?..

SİDDİQƏ:  Nəhayət başa düşdü.

QARI:  Məni aldatdınız!..

TAHİR:  Ay nənə, bizdə o bəxt hardandı ki, bizə də pul çıxaydı?..

CAMAL:  Hani bizdə elə şans?..

QARI: Namussuzlar!..Oğrular!..Soyğunçular!..(dəhşətlə). Alçaqlar!..

CAMAL: Bağırma ana, bağırma.

SİDDİQƏ: Qonum-qonşu duyacaq.

QARI: Saxtakarlar!..Oğrulaaar!..

CAMAL: Bəsdir, ay ana!..(Ağzını tutmağa çalışır). Eləmə ay ana!..

REYHAN: (oyanıb gəlir). Nə olub?..

QARI: Əmizdirdiyim süd haram olsun!..Haram olsun!..Səni qarnımda daşıdım doqquz ay on gün!..Kaş ki, daşımaya idim!..Allah səni!..

(Tahir içəriyə qaçır).

CAMAL: Etmə ay ana!..Bəsdir daha!..

SİDDİQƏ: Bağırtıya bax, elə bil elektrik veririk!..

REYHAN: Nənə!..Nənə!..

CAMAL: (əsasını tutmağa çalışır. Tutur, amma Qarı əlləriylə Camalı sıxmağa, vurmağa davam etməkdədir). Bəsdir, ay ana, ayıbdır!..Eləmə!..

(Camal gücünü göstərir. Qadıncığaz yatdığı yerdən geriyə doğru sürüşür, hərəkətsiz qalır).

CAMAL: Ana!..Ana!..

SİDDİQƏ: Nə oldu?..

GƏLİN: Qoca nənə!..

TAHİR: (qaçaraq gəlir). Nənə!..

CAMAL: Nəfəs alır!..

TAHİR: Odekolon gətirin!..

SİDDİQƏ: Arxası üstə uzat!..

REYHAN:  (ağlamağa başlayır). Nənəyə nə oldu?..

CAMAL:  Mən bir şey eləmədim ki...Aman Allahım!..Ana qatili olacağam!..

TAHİR:  (üzgün). Bütün günah məndə!..

SİDDİQƏ:  Niyə səndə olsun?..

CAMAL:  Bütün bu oyunları  başımıza sən açdın, arvad! Bunu puluna elə əvvəlcədən göz dikmişdin!..

SİDDİQƏ:  (ağlamağa başlayır). Mənim nə günahım var?..

TAHİR:  İnşallah, bir şey olmaz...

(Gəlinin gətirdiyi odekolonu Qarının qollarına və ayaqlarına sürtərlər. Yanaqlarını ovuşdururlar. Qarı özünə gəlir. Diri və canlıdır. Kim bilir, bəlkə də oyun oynamaqdadır).

SİDDİQƏ:  Gözlərini açdı...

CAMAL:  Aman, anam...Canım anam...

TAHİR:  Nənə, bizi yaman qorxutdun ha...

GƏLİN:  Keçmiş olsun!..

REYHAN:  Allahım, sənə çox şükür!..

CAMAL:  Hay maşallah, anam!..Odu ha!..Dayan, kürəyinə yastıq qoyaq sənin!..(Siddiqəyə). Kəsdirmə başımın üstünü!..Yeri, get yastıq gətir!..

Anam, necəsən?..

QARI:  Pulumu aldılar!..

SİDDİQƏ:  Hələ də pulun dərdini çəkir.

QARI:  Mümkünü yoxdur, geri qaytarmazlar!..

TAHİR:  Pulu-mulu çıxart ağlından, nənə...

CAMAL: (boş-boş danışır). Zarafat elədik, ay ana. İşi niyə böyüdürsən?

QARI: Elədirsə, pulumu geri istəyirəm. Hamısını!..Son quruşuna qədər!

CAMAL: Yəni...Verə bilmərik ki, ana. İrəlidə verərik, vallahi...

QARI: Dedim axı...Bunlar bu pulu verə bilməyəcəklər. Pullarım getdi..

CAMAL: Başının üstünə yığılmayın. Qoyun, rahat nəfəs alsın anam...

(Hamı dağılır).

QARI: Dəli olacağam!..Tar-mar etdilər pulumu!..Pulum getdi!..Ölü pulum getdi!..Bunlar məni zibilə atacaqlar!..Zibilə atacaqlar!..Zibiləəə!.

CAMAL: Kəs daha!..Bəsdir!...(Qarı gözlərini bir nöqtəyə dikir, istər-istəməz ağlamağa başlayır. Susqun bir ağlamaqdır bu. Yavaşca). Verəcək sədəqəmiz varmış...

TAHİR: Allah qorusun.

SİDDİQƏ: Bir ara öldü zənn etdim.

REYHAN: Nənəmə bir çey olmasın. (Pauza. Qadın sakitcə ağlayır).

CAMAL: (üzülür). Bu da bizim həyatımız?..Yaşayışmı bu?..Deyək ki, hə, sabah bu işin altından çıxdıq, bəs o biri gün? Ya sonrakı gün?..Ya daha sonrakı günlər?..Bu da işdir? Bu belə gedərmi?..Bu zavallı qadının pulunu belə minbir hiyləylə ələ keçirmədikmi?..Birdən Allah eləməmiş nəsə olardı buna?..Az qala ana qatili olacaqdım. Bu işin çarəsini tapmaq lazımdır. (sevinclə). Ey müsəlman camaatı!..Məni dinləyin! Hər kəs məni dinləsin!..

SİDDİQƏ: Şaxsey, deyəsən bu da ağlını itirdi! Sən özün kömək ol, ya rəbbim.

QARI: (o da qorxaraq dua edir). Tu tu tu tuuu!..

REYHAN: Ata?..

TAHİR: Nə oldu yenə?..

CAMAL: Tapdım...Təqaüdə çıxıram!..Təqaüdçü olacağam!..

(Hamıda sevinc).

SİDDİQƏ: Ödüm ağzıma gəldi. Mən də dedim nə olub buna?..

TAHİR: Dedim, yəqin yenə qatarları toqquşdurmusan.

CAMAL: Dərhal ərizə yazıb verəcəyəm. Təqaüd təzminatımı alar – almaz, sənin pulunu ödəyəcəyəm!..O İsmayılın borcunu da qaytararıq. Qalan pula da sənə bir maşın. Gerisi artıq sənin öz işindir. Gecə-gündüz işləyib, qaytararsan borcunu.

TAHİR: Təqaüdə çıxarkən sənə nə qədər pul verəcəklər?..

CAMAL: Ən azı üç milyon. Qızım, bir qəhvə hazırlasana!..

TAHİR: (gülür). Ata, o pula heç invalid maşını ala bilməzsən.

CAMAL: Bu nə sözdür?..Az puldur?..İsmayıl oğluna yeddi yüz əlli minə maşın almadı?..Nə olsun, bir az işlənmişini almışdı, amma yenə işinə yarayırdı ki?..

TAHİR: Altı silindirli. Benzinin atasını yandırırdı...Damasız.

CAMAL: Dama nəyə deyirsən sən? O kənarlarında olan işarələri deyirsən?..Taksi işarəsini?..

TAHİR: Məsələ sən düşündüyün kimi asan deyil, ata. Təkcə dama ilə iş bitmir. O iş üçün maşının hələ taksi nömrəsi də olmalıdır.

CAMAL: Nömrənin qiyməti neçəyədir ki?..Heç kefini pozma, onu da alaram sənin üçün.

TAHİR: İndiki qiymətini bilmirəm, amma deyirlər, çox bahadır.

CAMAL: Demə.

SİDDİQƏ: Yəni kiçik bir dəmir parçasımı baha qiymətə?..

TAHİR: Bəli, bir dəmir parçası. O olmayınca, maşına dama vurmaq müşkül məsələdir.

CAMAL: O zaman bu iş yaş.

TAHİR: Amma belə də olar ki, istifadə olunmuş özəl bir maşın alarıq. Qorxma, qiymətini salaram aşağı, ucuz alarıq və başlayaram qaçaq çalışmağa. Yəni, guya maşın taksiymiş kimi işləyir. Başa düşdün?..

CAMAL: Cərimə eləməzlər səni?..

TAHİR: Yaxalasalar, əlbəttə cərimə edərlər. Hətta maşını belə əlimdən alarlar. Amma çarəsi varmı, gərək elə işləyəsən ki, səni tuta bilməsinlər.

CAMAL: Elə şey olar?..

TAHİR: Niyə olmur? Qeyri-qanuni çalışan çoxlu dostlarım var. Üç dəfə yaxalanana qədər heç nə olmur. Amma üçüncü dəfə tutsalar məsələ qəlizləşir, maşını əlindən alıb şəhər kənarına aparırlar.

CAMAL: Bu iş də lax çıxdı.

TAHİR: Niyə də lax çıxsın?..O qədər də qorxacaq bir şey yoxdur, ata. Bir az diqqətli və ehtiyatlı ol, yetər. Gecə çalışaram. Başa düşürsən?.. Taksiymiş kimi. Qarajlarda gözləyərəm. Hələ yollardan müştəri də toplaram. Hər-halda günə üç-beş quruş gətirərəm evə. Bir neçə məktəblə danışıb uşaqları hər dəfə dərsdən evə, evdən də dərsə daşımaq üçün abonoment etsək, özümüzə gəlib rahat nəfəs alarıq. Heç olmasa indiki güzaranımızdan yaxşı yaşayarıq ki?..Arada sizi Çölbaşına da apararam. İnşallah, yaxşı olar, ata. (Pauza).

CAMAL: (Reyhana). Qızım, sən qalxmısan?..

REYHAN: Qalxdım, ata...

CAMAL: Bir az daha yatsaydın.

SİDDİQƏ: Halı yox, baxsana, Get, bir az da yat qızım.

REYHAN: Yaxşıyam, ana.

SİDDİQƏ: Heç olmasa, bir az uzan.

REYHAN: Daha yata bilmərəm.

(Qarı hələ də səssiz-səssiz ağlamaqdadır. Gəlin də narazıdır. Qapı açılır. Mahir daxil olur).

SİDDİQƏ: Haradasan oğlum?.

MAHİR: (cibindən çıxardığı zərfi atasına uzadır). Rafiq Abimin yanındaydım.

CAMAL: Bu nə zərfdir?..

MAHİR: Gəlinin atası göndərdi. İnciməsinlər dedi. Bir az əksiyi varmış. Onu da ən qısa vaxtda qaytararam dedi. (Camal pulları sayır).

CAMAL: Harada gördün?..

MAHİR: O da bizə gəlirmiş. Məni görüncə verdi.

SİDDİQƏ: Bəs evdəki xəstədən nə xəbər var?..

MAHİR: Nə xəstə?..Yox, mənə bir söz demədi...

GƏLİN: Kimsənin pulu qalmaz atamda...(içəri keçir).

TAHİR: Aaaazz!..

CAMAL: Sus.

SİDDİQƏ: İşin olmasın, üstünə getmə...

(Mahir qərarsız dayanıbdır).

CAMAL: (Siddiqəyə). Gətir, anamın pulunu. Gətir, uzatma!..

(Siddiqənin gətirdiyi pulu alır. Qarının yanına gəlir). Al, ana...

(Qarı küsgündür. Daha da ucadan ağlamağa başlayır.)

CAMAL: Al anam. Al... Bax, indi...Mən də daşürəkli adam deyiləm anam...(sarılıb zorla anasının əlini öpür. Pulu da ətəyinə qoyur). Al, götür...Al dedim...

QARI: Almırsa vermə canım.

CAMAL: Sən qarışmasan, olmaz!..Arvadı sahibsiz görürsən?..Ay ana, al!..(Qarı sanki könülsüz olaraq pulu alır. Dərhal qoynunda gizlədir).

SİDDİQƏ: (Mahirə). Niyə oturmursan, oğlum?..Nə olub?..

MAHİR: Bir azdan İstanbula yola düşürəm. (Pauza).

CAMAL: Nə?..

SİDDİQƏ: Nə İstanbul?..

TAHİR: Bir azdan?..Necə yəni İstanbula yola düşürəm?..Bu haradan çıxdı indi?..

MAHİR: Bu işlər belə getməz. Olmaz belə. Əvvəl-axır...Baxın, əsgərlikdən gələni altı ay keçdi. Hər gün boş oturmaq, sizdən pul almaq məcburiyyətində qalmağı özümə sığışdıra bilmirəm...

SİDDİQƏ: Amma əvvəl-axır bir iş tapacaqsan...

MAHİR: Yox, ana. Müraciət eləmədiyim dövlət idarəsi, özəl müəssisə qalmadı. Tamam deyirlər, iş olan kimi biz sənə xəbər verəcəyik. Yoxdur!..Yoxdur!..Nə xəbər, nə də iş, heç biri yoxdur!..Bu gün Rafiq qardaşla polis idarəsinə getmişdik. Sağ olsun, çoxdandır maraqlanırdı mənim vəziyyətimlə. Həmin o komissar da növbətçi idi. Elə mənim yanımda İstanbula zəng etdilər. Mənim işimlə maraqlanan adamı ta evində tapdılar. Əsgərliyə getmədən əvvəl də mətbəədə çalışdığımı eşidincə, tamam, gəlsin dedi.

SİDDİQƏ: Oğlum, harada qalacaqsan?..Orası İstanbul...

MAHİR: Subay işçılər varmış. Hələlik onların yanında qalaram.

SİDDİQƏ: Camal, sən nə deyirsən, bu işə?..

CAMAL: Nə deyə bilərəm ki?..

TAHİR: Nə qədər maaş verəcəklər sənə?..

MAHİR: Düzü, utandım soruşmağa. Amma Rafiq qardaş, yaxşı pul alacaqsan dedi. Nahar yeməyini də pulsuz verirlərmiş. Ana, bir az sonra dostlarım gəlib məni taksi ilə götürəcəklər. Səni biz yola salacağıq dedilər.

CAMAL: Elə indi?..

MAHİR: Elə indi, ata. Qarajdan minəcəyik. Gec olmadan gedim ki, qalacağım evdəki adamlar mənə görə yuxudan erkən oyanmasınlar. Zatən sabah işə başlamalıyam. Mənim üçün yola əlavə heç nə qoyma, ana. Alt paltarı, dəsmal filan yetər. Eyni ilə əsgərliyə getdiyim kimi. Gedəcəyəm, ana!...Başqa çarə yox!..Artıq bu mövzuda danışmayaq! Kiçik çantamı hazırla, ana.

SİDDİQƏ: Əvvəlcədən desəydin, bari yemək hazırlardım yola sənin üçün. İndi ac qarına...

MAHİR: Yolda bir şeylər yeyərəm. Gecikməyim ana. Uşaqlar harada isə indi gəlirlər.

(Siddiqə çantanı çıxarır. Tahir otağına keçir. Hamı üzgündür. Hətta Reyhan da ağlayır).

MAHİR: Dünyanın o başına getmirəm ki?..İstanbul buradan buradır. Beş-altı saatlıq yoldur. Həftənin axırı bir də gördünüz ki, gəlmişəm. (Reyhanı öpür). İnşallah, babat bir ev tapsam, Reyhanı da arada bir yanıma göndərərsiniz. Orada vapura minərik səninlə. Cəzdirərəm səni. Dənizə də apararam. (Reyhan qardaşına sarılıb ağlayır).

TAHİR: Vallah, çaşıb qalmışam...

MAHİR: (Nənənin də ağladığını görür). Nənə, niyə ağlayırsan, bəs sən

hər dəfə mənə demirdin ki, insan üçün doğulduğu  yox, doyduğu yer vətəndir . Qaldi ki, biz Ankarada doğulmadıq.

(Mahir içəridə çantanı qablaşdıran Siddiqənin yanına gəlir).

GƏLİN:  Gedirsən, Mahir?..

MAHİR:  Varmı çarəsi?..Çox şey qoyma, anam. Necə olsa, gəlib gedəcəyəm. Amma ağlama, ana..

SİDDİQƏ:  Mən səndən necə ayrılım, canım...

MAHİR:  Allah eləməmiş, ölümə ki, getmirəm?..Fürsət tapan kimi həftə sonu gələcəyəm. Ağlama, ürəyim üzülür...Yaxşı, yaxşı...Hər şeyi qoydun.

SİDDİQƏ:  Bir dənə də yun köynək qoydum. Dəniz sahili sərin olur. Köksünü, sinəni bərk tut ki, xəstələnməyəcən, canım.

(Mahir, Gəlin və Siddiqə dəhlizə keçırlər).

CAMAL:  (zərfdəki puldan sayıb bir qismini uzadır Mahirə). Al.

MAHİR:  Rafiq qardaş bir az borc verdi. Pulum var.

CAMAL:  Nə qədər var?..Bunu da al.

MAHİR:  Var, ata. Zatən çatar-çatmaz avans da verəcəklər.

SİDDİQƏ:  Yola çıxırsan, oğlum. Nə olar, nə olmaz?..

MAHİR:  Çatar ana. Çatmasaydı götürərdim.

(Dişarıdan yaxınlaşan maşının səsi gəlir. Siqnal. Mahir pəncərədən baxır. “Gəlirəm” deyə işarə edir).

MAHİR:  Öpüm səni ata.

CAMAL:  (əlini uzadır). Özündən muğayat ol.

MAHİR:  (Reyhana yaxınlaşır, bacısına sarılıb, öpür). Gələrsən yanıma, Reyhan. Ağlama, bacım, ağlama...(Gəlini də öpür. Siddiqə qaba su

doldurur. Mahir qardaşına sarılır. Eləcə bir müddət qalırlar).

TAHİR: Heç inanmağım gəlmir...əsl kişisən sən!..

QARI: (hönkür-hönkür ağlamağa başlayır). Mahirim mənim...Canım-ciyərim mənim...Az daşımadın məni kürəyində ayaqyoluna...

MAHİR: Borcumdur, nənə. Bəlkə bizi də sabah uşaqlarımız daşıyacaq.

QARI: (qoynundan pul çıxarır. Bir miqdar sayır). Bunu götür, mənim balam.

MAHİR: Pulum var, nənəcan.

QARI: Özümü öldürrəm, almasan. Öldürrəm özümü!..(Mahir pulu alır). Ayrı bir cibinə qoy, bala. Birdən o biri pulunu oğurlasalar, heç olmasa bu qalsın yanında. İstanbulda it yiyəsini tanımır. Gəl bir dəfə də öpüm səni. Bəlkəm...bəlkəm...Bir daha görə bilmədin məni...

MAHİR: Elə demə, nənə...

QARI: (gerçəklər). Day hay-hayım gedib, vay-vayım qalıb. Hıqqana-hıqqana olsa da bu qışdan çıxmağa çalışıram. Ola ki, bir daha səni görə bilməzsəm, haqqını halal elə...

MAHİR: Halal olsun, nənə. Sən də məni halal elə.

QARI: Halal olsun, mənim balam...

(Mahir Siddiqənin yanına gəlir. Ana oğul qucaqlaşırlar. Bir müddət ayrılmırlar. Dişarıdan siqnal səsi ara vermir...)

MAHİR: (çantanı götürür). Dı salamat qalın...

(Çıxır, arxasından Siddiqə su atır. Digərləri maşının çalışdığını gözləri ilə izlərlər. Qarı belə pəncərəyə yanaşmışdır. Araba hərəkət edir ki, əl sallayırlar.)

QARI: Allah yolunu açıq eləsin!..

SİDDİQƏ: Gözə gəlməyəsən.

(Yerlərinə dönürlər, bir müddət səssiz otururlar).

CAMAL: Qalx Tahir. Qalx da buradan bir torba kömür, bir torba da odun al gəl. (Tahir hazırlanır). Sabah səhər erkən mən də gedəcəyəm. Nə qədər yadımdan çıxmayıb, kirayə pulunu da sənə verim. Al, hesab nömrəsi də vardır. Aman, tez ödə ki, üstümüzdə qalmasın. Zatən özün bilirsən.

TAHİR: Narahat olma, ata. Sabah ilk işim pulu ödəmək olacaq. (Gəlinə). Pulu saxla. Sabah yadıma sal. Yanımda qalmasın, ata. Bir də gördün bir həngamə çıxdı.

(Gəlin Camaldan aldığı pulu içəriyə götürür. Bufetin gözündə gizlər. Tahir atasından aldığı pulu isə cibinə yerləşdirir. Çıxarkən).

CAMAL: Gecikmə.

TAHİR: Gecikmərəm. (Çıxır).

(Reyhan qardaşı çıxar-çıxmaz pəncərənin önünə keçir. Digərləri eləcə susmuş oturublar. Hamısı da düşüncəlidir).

SİDDİQƏ: (Camala səssizcə). Qız özünə gəlib Həzrət gedəndən bəri.

CAMAL: Neçə adamı sağaldıb bu Həzrət...

SİDDİQƏ: Artıq ərə getməsinə də bir şübhə qalmadı.

CAMAL: İnşallah!..

SİDDİQƏ: Rafiq yaxşı oğlandır, vallahi...

CAMAL: Nə deyim ay Siddiqə?..Qismət.. (Pauza)

REYHAN: (birdən) Döyürlər!..Döyürlər!..Döyürlər!..

(Hamı birlikdə pəncərəyə tərəf qaçırlar.)

SİDDİQƏ: Həmid!..

CAMAL: O biri də Rüstəm!..

(Camal hərəkətə gəlir. Kürəyi qapıb dərhal küçəyə atılır. Arxasından da Siddiqə. Qarı, Gəlin və Reyhan təlaş keçirirlər. Gəlin də küçəyə qaçır. Dişarıdan hay-küy, qışqırıq, bağırtı səsi gəlir. Reyhan qapının yanına qaçır. İçəriyə əvvəlcə Tahir, arxada Camal və başqaları qaçaraq girərlər. Siddiqə qapını bağlayır. Tahirin əli-üzü qan içindədir. Əlləri titrəməkdədir. Camal bütün bunlara baxmayaraq qapını tutmağa cəhd edir. Gəlin Tahiri oturdur. Siddiqə oğlunun başını təmizləməyə başlar.

SİDDİQƏ: Əlləri qırılsın, inşallah...

HƏMİD: (səsi olduqca yaxından). Hardasan gədə?..Haraya qaçdın?.. Çıxsana dişarıya!..Məni tək görəndə kişilənirdin?..Haydı, çıxsana!.. Xiyar oğlu, xiyar!..(Tahir bir neçə dəfə qalxıb cavabını vermək istər, amma qoymurlar).

RÜSTƏM: (səsi yaxından). Burax onu Həmid abi!..Görmürsən gedib arvadının ətəyi altında gizlənib?..Çıxsana tüllab!..

HƏMİD: Səhər nə yaman kişilənirdin üstümə! İndi gəl göstər, kişiliyini də!..Çıx bayıra!..Kişisən, çıx bayıra deyirəm sənə!..

(Dişarıdan qapıya bərk-bərk vurmağa başlayırlar). Çıxsana, gədə!..

RÜSTƏM: (səsi). Ayə kişi deyilsən, sən?..

HƏMİD: Çıx!..

RÜSTƏM: Çıx, ayırd eləyək, görək kimdi burada lotu?..

HƏMİD: Eşitmirsən, kar oğlu kar!..Çıxsana bayıra!..

(Tahiri otağına götürürlər)

CAMAL: Həmid, oğlum...

HƏMİD: Çıxsın!..Çıxsın dişarıya!..

CAMAL: Qadan alım...

HƏMİD: Oğlun kişi deyilmi?..

CAMAL: İşi uzatmayın.

RÜSTƏM: Işin uzanmasını istəmirsən, sal dişarıya!..(Tahir üzünün halını görür aynada).

HƏMİD: Ə, qoduq, çıx bayıra demirəm, sənə!..

RÜSTƏM: Ayə, arvadsan sən?.. Qorxursan çıxmağa?..

(Reyhan bihuş olub üzü üstə düşür. Əsl epilepsi indi başlayır).

SİDDİQƏ: (qışqırır). Soğan gətirin!..Soğaaaaan!...

(Tahirdən başqa hamı qorxunc bir təlaş keçirir. Reyhanın ağzından köpüklər ətrafa sıçrayır, yerdə titrəyərək qıvrılır. Siddiqə soğanı qızının burnuna tutub ağlayır. Tahir səssizcə qatlama bıçağı götürür. Evdəkilərin çaşqın baxışları altında bayıra atılır. Həmid səhnənin önünə doğru qaçır. Tahir onu yaxalayıb, bıçağı köksünə saplayır. Hər şey sanki, bir neçə saniyənin işində baş verir. Tahir əlində bıçaq içəriyə girir. Titrəyir. Reyhanın tutması davam edir. Görüntü ləng göstərilən bir film kimidir sanki).

QARI: (Gözlərini yuxarı qaldırır). Nə istədik rəbbim, səndən?.. Yanmayacaq qədər isti, donmayacaq qədər soyuq istəmədikmi?.. (daha sərt). Yanmayacaq qədər isti, donmayacaq qədər soyuq!..Yanmayacaq qədər isti, donmayacaq qədər!...

(Artıq səsi eşidilməz olur).

S O N